Azərbaycan Respublikasının Prezidenti yanında
Elmin İnkişafı Fondunun qrant layihəsi çərçivəsində
nəşr olunmuşdur

Vəli Baxşəliyev

# I KÜLTƏPƏ VƏ ONUN ƏTRAFINDA ARXEOLOJİ ARAŞDIRMALAR

BAKI – ELMİN İNKİŞAFI FONDU – 2017

*Elmi redaktorlar:*

**İsmayıl HACIYEV**
*AMEA-nın həqiqi üzvü*

**Lauren RİSTVET**
*Dr., dosent*

*Elmi məsləhətçi:*

**İsa HƏBİBBƏYLİ**
*AMEA-nın həqiqi üzvü*

*Rəyçilər:*

**Hidayət CƏFƏROV**
*tarix elmləri doktoru, professor*

**Abbas SEYİDOV**
*tarix elmləri doktoru, professor*

**V.B.Baxşəliyev. I Kültəpə və onun ətrafında arxeoloji araşdırmalar.** – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2017. – 272 səh.

Monoqrafiyada I Kültəpə ətrafında aşkar olunan yeni arxeoloji abidələr haqqında məlumat verilmişdir. Neolit, Eneolit və Tunc dövrünə aid yeni aşkar olunmuş arxeoloji abidələr Naxçıvanda qədim mədəniyyətlərin meydana gəlməsi və inkişafı ilə bağlı bir sıra məsələləri yenidən dəyərləndirməyə imkan verir.

Monoqrafiya araşdırıcılar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**Monoqrafiya Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun qrant layihəsi çərçivəsində çap olunmuşdur: Qrant № EİF-2012-2(6)-39/28/5**

**Bu əsər 27 avqust 2012-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında 7297 nömrəli Şəhadətnamə (qeydiyyat nömrəsi: 04/C-6470-12) verilmişdir.**

**ISBN: 978-9952-516-02-9**

© Azərbaycan Respublikasının Prezidenti yanında
Elmin İnkişafı Fondu, 2017
© V.B.Baxşəliyev, 2017

Издана при финансовой поддержке
Фонда Развития Науки
при Президенте Азербайджанской Республики

**Вели Бахшалиев**

# АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ В КЮЛЬТЕПЕ-I И ЕГО ОКРЕСТНОСТЯХ

**БАКУ – ФОНД РАЗВИТИЯ НАУКИ – 2017**

***Научные редакторы:***

**Исмаил ГАДЖИЕВ**
*действительный член НАНА*

**Лаурен РИСТВЕТ**
*Д-р, доцент*

***Научный консультант:***

**Иса ГАБИББЕЙЛИ**
*действительный член НАНА*

***Рецензенты:***

**Гидает ДЖАФАРОВ**
*доктор исторических наук, профессор*

**Аббас СЕИДОВ**
*доктор исторических наук, профессор*

**В.Б. Бахшалиев. Археологические исследования в Кюльтепе-I и его окрестностях.** – Баку: Фонд Развития Науки при Президенте Азербайджанской Республики, 2017. – 272 стр.

В монографии приведена информация об археологических памятниках, выявленных на окрестностях Кюльтепе-I. Памятники, относящиеся к неолиту, энеолиту и эпохе бронзы, позволяют изучать некоторые вопросы, связанные с происхождением и развитием древних культур.

Монография предназначена для исследователей и широкого круга читателей.

**Книги издана при финансовой поддержке Фонда Развития Науки при Президенте Азербайджанской Республики:**
**Грант № EİF-2012-2(6)-39/28/5**

**Этот труд зарегистрирован 13 марта 2014 года Фондом Развития Науки при Президенте Азербайджанской Республики в Агентстве по Авторским Правам Азербайджанской Республики и выдано свидетельство № 7297 (номер регистрации: 04/C-6470-12).**

**ISBN: 978-9952-516-02-9**

© Фонд Развития Науки
при Президенте Азербайджанской Республики, 2017
© В.Б. Бахшалиев, 2017

Publication is financially supported
by the Science Development Foundation
under the President of the Republic of Azerbaijan

Veli Bakhshaliyev

# ARCHAEOLOGICAL RESEARCHES IN KULTEPE-I AND ITS VICINITY

BAKU – FUND OF DEVELOPMENT OF SCIENCE – 2017

***Scientific Editors:***

**İsmayıl HAJIYEV**
*Full Member of ANAS*

**Lauren RISTVET**
*Dr., Assoc. Professor*

***Scientific consultant:***

**İsa HABİBBAYLİ**
*Full Member of ANAS*

***Reviewers:***

**Hidayat JAFAROV**
*Doctor of Historical Sciences, professor*

**Abbas SEYİDOV**
*Doctor of Historical Sciences, professor*

**V.B. Bakhshaliyev. Archaeological Researches In Kultepe-I And Its Vicinity.** – Baku: Science Development Foundation under the President of the Republic of Azerbaijan, 2017. – 272 p.

The monograph provides information about new archaelogical monuments revealed on the vicinity of Kultepe-I. Recently discovered archaeological monuments of Neolith, Eneolith and Bronze era allow to re-evaluate a number of issues related to the formation and development of ancient cultures in Nakhchivan.

The monograph is intended for researchers and wide range of readers.

**Monograph was published within the grant project of the Science Development Foundation under the President of the Republic of Azerbaijan:**
**Grant № EİF-2012-2(6)-39/28/5**

**This work was registered at the Copyright Agency of the Republic of Azerbaijan by the Science Development Foundation under the President of the Republic of Azerbaijan on August 27, 2012 and the Certification with number 7297 has been issued (registration number 04/C-6470-12) for the registration of this work.**

**ISBN: 978-9952-516-02-9**

© Science Development Foundation
under the President of the Republic of Azerbaijan, 2017
© V.B. Bakhshaliyev, 2017



"...Biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır...."

***Heydər Əliyev***

*Azərbaycan xalqının ümummilli lideri*



*Neolit dövrünə aid məişət-təsərrüfat kompleksi*

*(I Kültəpə)*

# MÜNDƏRİCAT / СОДЕРЖАНИЕ / CONTENTS

GİRİŞ....................................................15
2013-CÜ İLDƏ KÜLTƏPƏ YAŞAYIŞ YERİNDƏ
ARXEOLOJİ TƏDQİQATLAR....................................................17
KÜLTƏPƏDƏ 2014-CÜ İLİN
ARXEOLOJİ ARAŞDIRMALARI....................................................22
I KÜLTƏPƏ ƏTRAFINDAKI ARXEOLOJİ ABİDƏLƏRİN
VƏ KERAMİKA MƏMULATININ TƏSNİFİ....................................................28
KERAMİKA MƏMULATININ PARALELLƏRİ....................................................59
NƏTİCƏ....................................................65

ВВЕДЕНИЕ....................................................67
АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ
В ПОСЕЛЕНИИ КЮЛЬТЕПЕ В 2013 ГОДУ....................................................69
АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ
В ПОСЕЛЕНИИ КЮЛЬТЕПЕ-I В 2014 ГОДУ....................................................71
ИССЛЕДОВАНИЕ АРХЕОЛОГИЧЕСКИХ ПАМЯТНИКОВ ВБЛИЗИ
КЮЛЬТЕПЕ-I И ТИПОЛОГИЧЕСКАЯ КЛАССИФИКАЦИЯ
КЕРАМИЧЕСКИХ ИЗДЕЛИЙ....................................................73
ПАРАЛЛЕЛИ КЕРАМИЧЕСКИХ ИЗДЕЛИЙ....................................................94
ЗАКЛЮЧЕНИЕ....................................................101

INTRODUCTION..........103
ARCHAEOLOGICAL EXCAVATIONS
AT THE SETTLEMENT OF KULTEPE-I IN 2013..........105
ARCHEOLOGICAL EXCAVATIONS
IN THE SETTLEMENT OF KULTEPE-I IN 2014..........107
ARCHAEOLOGICAL MONUMENTS
AND TYPOLOGICAL CLASSIFICATION OF POTTERY..........109
PARALLELS OF POTTERY..........121
CONCLUSION..........128

SEÇİLMİŞ BİBLİOQRAFİYA / ИЗБРАННАЯ БИБЛИОГРАФИЯ
/ SELECTED BIBLIOGRAPHY..........130

# GİRİŞ

Naxçıvan MR-in ərazisi tarixin müxtəlif dövrlərinə aid arxeoloji abidələrlə zəngindir. Naxçıvanın arxeoloji abidələri yalnız Azərbaycanın, Cənubi Qafqazın və Yaxın Şərqin deyil həmçinin dünya tarixinin öyrənilməsi üçün əhəmiyyətlidir. Lakin Naxçıvanın qədim tarixini əks etdirən bəzi problemlər, xüsusilə Neolit dövrünə aid abidələr, Eneolit və Kür-Araz mədəniyyətinin mənşəyi ilə bağlı problemlər tam şəkildə öyrənilməmişdir. Naxçıvançay vadisində yerləşən I Kültəpə abidəsi Sovet dövründə geniş tədqiq edilsə də yaşayış yerində Neolit təbəqəsinin varlığı ilə bağlı aydınlaşdırılmamış məsələlər hələ də qalmaqdadır. Bir çox qafqazşünas alimlər I Kültəpədə Neolit dövrünün varlığını qəbul etsələr də, digərləri bu məsələni sual altına almışlar. Digər tərəfdən bu regionda I Kültəpə kimi nadir çoxtəbəqəli abidənin olmasına baxmayaraq indiyədək Naxçıvanın şərq hissəsində Neolit və Eneolit dövrünü əhatə edən yeni arxeoloji abidələr aşkar olunmamışdır. Şərur rayonu ərazisində yeni Eneolit abidələrinin aşkar olunması, İran Azərbaycanında, Culfa-Mərənd ətrafında Eneolit abidələrinin varlığı bu məsələnin yenidən araşdırılmasını zəruri etmişdir.

Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyə yardımı ilə I Kültəpə yaşayış yeri və onun ətrafındakı abidələr 2013-2014-cü illərdə yenidən tədqiqat obyektinə çevrilmişdir. Araşdırmalar nəticəsində I Kültəpə ətrafında Neolit dövründən başlayaraq Orta əsrlərədək Naxçıvan tarixinin böyük bir dövrünü əhatə edən əlliyə yaxın arxeoloji abidə aşkar olunmuşdur. Yeni aşkar olunan arxeoloji matetiallar istər Neolit, Eneolit, istərsə də Tunc dövrü ilə bağlı problem məsələlərin həlli üçün, xüsusilə Naxçıvanın dağlıq və dağətəklərinin məskunlaşdırılması ilə bağlı problemlərin araşdırılmasına imkan yaradır. Yeni abidələrin tədqiqi Naxçıvanda yaşayan qədim tayfaların Cənubi Qafqaz və Yaxın Şərq ölkələri ilə əlaqələrinin Naxçıvan abidələrinin Yaxın Şərqdəki mövqeyini yenidən dəyərləndirməyə imkan verir.

I Kültəpə ətrafındakı abidələrin tədqiqi bu regionun Neolit dövründən başlayaraq məskunlaşdırıldığını və Yaxın Şərqin tarixində mühüm rol oynadığını göstərir. Cənubi Qafqazın başlıca xammal mənbələrinə, o cümlədən obsidian və mis yataqlarına giriş bu ərazidən olduğu üçün bu region uzun müddət ərzində Yaxın Şərq ölkələri üçün əhəmiyyətini itirməmişdir. Yaxın Şərq ölkələri ilə əlaqələrin inkişaf etməsində bilavasitə Naxçıvanda yerləşən xammal mənbələrinin də mühüm əhəmiyyəti olmuşdur.

Naxçıvan abidələrinin geniş şəkildə araşdırılması abidələrimizə dövlət qayğısının nəticəsidir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müxtəlif mədəniyyətlərin izlərini daşıyan Naxçıvan abidələrinin tədqiq edilməsinin vacibliyini dəfələrlə qeyd etmişdir. Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunda tədqiqatların aparılması, həmçinin tarixi abidələrin qorunub saxlandığı Azərbaycan Tarixi Muzeyində araşdırmaların genişləndirilməsi üçün xüsusi fərmanlar vermişdir.

Naxçıvan Muxtar Respublikasında yerləşən tarix və mədəniyyət abidələrinin qorunması və araşdırılması həmişə Naxçıvan MR Ali Məclisi sədrinin diqqət mərkəzində olmuşdur. Dövlət qayğısının nəticəsidir ki, hər il Naxçıvan ərazisində aparılan araşdırmalar nəticəsində onlarla yeni abidə aşkar olunur.

Biz Naxçıvan abidələrinin öyrənilməsi üçün əlverişli şərait yaradan Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fonduna, onun icraçı direktoru Elçin Babayevə, Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbova, AMEA Naxçıvan Bölməsinin sədri akademik İsmayıl Hacıyevə, Kültəpə və Sirab kənd sakinlərinə dərin minnətdarlığımızı bildiririk.

# 2013-CÜ İLDƏ KÜLTƏPƏ YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR[1]

Cənubi Qafqazda, o cümlədən Azərbaycanda erkən əkinçilik mədəniyyətlərinin öyrənilməsində mühüm əhəmiyyəti olan abidələrdən biri də Naxçıvanda yerləşən Kültəpə yaşayış yeridir. Yaşayış yeri arxeoloji ədəbiyyata həmçinin I Kültəpə adı ilə daxil olmuşdur. Məlum olduğu kimi, bu abidənin tədqiqi XX əsrin 50-ciillərində başlanmışdır. O.H.Həbibullayev yaşayış yerinin ən aşağıda yerləşən "1a" təbəqəsini Neolit dövrünə, "1b" təbəqəsini isə Eneolit dövrünə aid etmişdir (Həbibullayev, 1959, c. 14). Lakin tədqiqatçı sonrakı əsərlərində bu fikirdən imtina edərək hər iki təbəqəni Eneolit dövrünə aid etmişdir (Абибуллаев, 1982, c. 24). Kültəpənin "1a" təbəqəsi bir müddət arxeoloji ədəbiyyatda Eneolit mədəniyyəti kimi xarakterizə edilsə də (Мунчаев, 1982, c. 93-131) hazırda abidənin bu təbəqəsi Neolit dövrünə aid edilməkdədir (Нариманов, 1987, c. 133; Kushnareva, 1997, p. 30-40; Seyidov, 2003, s. 21, 39-40). Kültəpə son vaxtlaradək Naxçıvanda Neolit dövrünə aid edilən yeganə abidə idi[2]. Kültəpənin Neolit dövrünə aid təbəqəsinin materialları yaxşı nəşr edilmədiyindən və karbon analizlərinin nəticələri köhnəldiyindən Azərbaycanın bu qədim diyarının Neolit dövrü haqqında bitkin məlumat əldə etmək olduqca çətindir. Buna görə də Kültəpə yaşayış yerində 1951-1964-cü illərdə aşkar olunan arxeoloji materialların yenidən araşdırılaraq nəşr edilməsi nəzərdə tutulmuşdur[3]. Digər tərəfdən 2006-cı ildən Duzdağda aparılan araşdırmalar qədim duz mədənlərinin daha çox Naxçıvançay vadisində yerləşən abidələrlə bağlı olduğunu göstərir. Belə ki, Duzdağda aşkar olunan əmək alətlərinin bənzərləri I Kültəpə və II Kültəpə yaşayış yerlərində daha çox rast gəlinir. Mədən sənayesinin meydana gəlməsi və inkişafı tarixinin öyrənilməsi üçün də Kültəpə yaşayış yerinin tədqiqinə ehtiyac vardır. Kültəpə yaşayış yerinin Neolit və Eneolit dövrü haqqında geniş məlumat əldə etmək və təbəqələrin necə saxlandığını aydınlaşdırmaq məqsədi ilə 2013-cü ildə burada kəşfiyyat xarakterli araşdırmalar

[1] Bu iş Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyə yardımı ilə yerinə yetirilmişdir, qrant № EİF-2012-2(6)-39/28/5/. Araşdırmalara həmçinin Fransa Milli Araşdırmalar Mərkəzi maliyə yardımı etmişdir.

[2] Hazırda Naxçıvanda Neolit dövrünə aid yeni abidələr aşkar olunmuşdur. Bax: *Bakhshaliyev V., Seyidov A.* New Findings from the Settlement of Sadarak (Nakhchivan-Azerbaijan) // Anatolia Antiqua, XXI, 2013, p. 1-21.

[3] Bu iş AMEA NB və Fransa Milli Araşdırmalar Mərkəzinin xüsusi layihəsi əsasında yerinə yetiriləcəkdir.

aparılmışdır. Araşdırmalar Fransa Milli Araşdırmalar Mərkəzinin əməkdaşları ilə birlikdə aparılmışdır. Yaşayış yerində 2013-cü ildə aparılan araşdırmaların məqsədi Neolit və Eneolit dövrünə aid sağlam qalmış təbəqələri müəyyənləşdirmək və gələcək araşdırmalar üçün təməl yaratmaqdan ibarət idi.

Kültəpə yaşayış yerində 2013-cü ildə iki sahədə qazıntı aparılmış, iki sahədə isə təmizləmə işləri aparılmışdır[4]. Birinci qazıntı sahəsi O.H.Həbibullayevin vaxtilə tədqiqat apardığı sahənin kənarında (**A** kvadratı, sahəsi 5x5m) qoyuldu. Bu sahədəki qazıntılar zamanı abidənin üzərində qazılmış çuxurların müasir dövrə aid məişət qalıqları ilə dolduğu müəyyən olundu. Məişət qalıqları təmizləndikdən sonra Eneolit dövrünə aid maddi-mədəniyyət qalıqları ilə zəngin olan təbəqə aşkar olundu. Qazıntı sahəsi uçub-tökülmüş kərpic tikintinin qalıqları ilə örtülmüşdü. Tədqiqat zamanı bir-birini əvəz edən bir neçə tikinti qatının olduğu müəyyən edilmişdir. Eyni rəngli təbəqədə divar qalıqlarını aşkar etmək çətin olsa da 1,5 m dərinlikdə dairəvi formalı kərpic divarın qalıqlarını müəyyən etmək mümkün oldu. Divarın yalnız bir hissəsi salamat qalmışdı. Kəsikdə gildən hazırlanmış kərpic və möhrə bloklar aydın şəkildə seçilirdi. Divar qalığı 0,8 m hündürlükdə saxlanmışdı. Otaq qalığının iç tərəfində saxlanan mədəni qatlar onun uzun müddət istifadə onun olunduğunu və döşəmənin tədricən yüksəldiyini göstərir. Onun içəri tərəfində Eneolit dövrünə aid maddi-mədəniyyət qalıqları, o cümlədən dairəvi formalı ocaqlar aşkar olundu. Ocaqların içərisi boz rəngli küllə dolmuşdu. Onların müxtəlif dərinlikdə yerləşməsi ocaqların tez-tez yer dəyişdiyini göstərirdi. Ocaqların ətrafında sərt gil döşəmənin üzərinə kül yayılmış, bəzi yerlərdə döşəmə qızarmışdı. Bununla belə bu sahədə maddi-mədəniyyət qalıqları, o cümlədən keramika məmulatı olduqca az idi. Erkən Tunc dövrünə aid az miqdarda keramika yalnız üst laylarda aşkar olunmuş, alt laylarda isə ona rast gəlinməmişdir. Beləliklə müəyyən olundu ki, abidənin bu hissəsində Tunc dövrü təbəqəsi O.H.Həbibullayevin tədqiqatları zamanı tamamilə tükənmişdir. Bu isə Neolit dövrünə aid təbəqənin bir qisminin toxunulmaz qaldığını göstərirdi. Bu sahədən götürülən kömürün analizi e.ə. 5490-cı ili göstərmişdir.

İkinci qazıntı sahəsi (**B** kvadratı, sahəsi 5x5m ) yaşayış yerinin toxunulmamış hissəsində, mədəni təbəqənin varlığı ehtimal olunan yerdə qoyuldu[5]. Abidənin bu hissəsində məscid tikildiyi üçün qazıntı aparmaq çətin idi. Buna baxmayaraq seçilən sahədə tədqiqat başlandı. Bu sahədəki araşdırmalar yaşayış yerinin orijinal

---

[4] Qazıntı sahələri müəyyənləşdirilərkən yerli əhalinin, o cümlədən 1951-1964-cü il qazıntılarında iştirak edən sakinlərin fikirlərindən yararlanılmışdır. Bizə kömək etdiklərinə görə Kültəpə kəndinin sakinlərinə minnətdarlığımızı bildiririk.

[5] Kənd sakinlərinin verdiyi məlumata görə abidənin bu hissəsində vaxtilə həyətyanı sahə olmuşdu.

meylini müəyyən etməyə imkan verirdi. Təpənin ətəyində Erkən Tunc dövründə və müasir dövrdə məskunlaşma olduğu üçün bu dövrə aid maddi-mədəniyyət qalıqları Neolit materialları ilə qarışmışdı. Qarışıq təbəqə sahənin cənub-qərb hissəsində 1,2m dərinliyədək davam edirdi. Sahənin digər hissəsində isə yalnız Son Neolit və Eneolit dövrünə aid maddi-mədəniyyət qalıqları aşkar olunurdu. Bu hissədə kül yığınları və kərpic tikintilərin qalıqlarına rast gəlinirdi. Tədqiqat zamanı 0, 3 m dərinlikdə düz kərpic divarın qalığı aşkar olundu. Divarın eni 0,4 m, qalınlığı 0,2 m, uzunluğu 1,8 m idi. Lakin sahənin kiçikliyi və layların incəliyi tikintilərin planını müəyyən etməyə imkan vermirdi. Qazıntının kəsiyində bir-birini əvəz edən dörd tikinti qatının olduğu aydın seçilirdi. Lakin tikintilər güclü dağıntıya uğradığından və başlıca olaraq qazıntı sahəsindən kənarda qaldığından onların planını izləmək mümkün deyildi. Qazıntı 1,7 m dərinliyə çatdıqda kərpic divar qalığı aşkar olundu. Bu divar da əsasən sahədən kənarda qaldığı üçün onun ölçülərini müəyyən etmək mümkün olmadı. Divarın eni 0, 3 m idi. Bu dərinlikdə artıq bütün sahədə Neolit dövrünə aid qarışıq olmayan təbəqə aşkar olundu. Bu təbəqədə aşkar olunan keramika məmulatı Neolit dövrünün sonu və Eneolit dövrünün əvvəlləri üçün xarakterik idi. Araşdırmalar Neolit dövrünə aid təbəqələrin yaxşı saxlandığı yerləri müəyyən etməyə imkan verdi. B sahəsindən götürülən kömür analizi e.ə. 5903-cü ili göstərmişdir.

Kültəpə yaşayış yerinin köhnə qazıntı sahəsində aparılan təmizləmə işləri mədəni təbəqənin xüsusiyyətlərini müəyyənləşdirməyə imkan verdi. Birinci kəsik təmizləməsi abidənin qərb hissəsində idi. Burada aparılan təmizləmə işləri Kür-Araz mədəniyyətinə aid təbəqələrin tükəndiyini, qalan təbəqənin yalnız Neolit dövrünə aid olduğunu göstərdi. İkinci sahədə 3 m hündürlükdə təmizləmə aparıldı. Məlum oldu ki, aşağı qatlarda bir-birini əvəz edən mədəni laylar incə olmuşdur. Üst layda isə daha qalın tikinti qalığına rast gəlinirdi. Ola bilsin ki, bu, möhrə tikintilərin qalın divarlı olması ilə bağlı olmuşdur. Abidənin üzərindən 2, 1 m dərinlikdə aşkar olunan binanın qalıqları 1, 5 m hündürlükdə qalmışdı. Onun içərisində ocaq qalığı var idi. Kəsikdən məlum olur ki, bina konusvari formada olmuşdur. Aşkar olunan arxeoloji materiallar başlıca olaraq Son Neolit və Eneolit dövrünün əvvəllərinə aid idi.

Ümumiyyətlə, araşdırmalar yaşayış yerinin müəyyən hissəsində Neolit və Eneolit təbəqələrinin kifayət qədər qaldığını göstərdi ki, bu da gələcək tədqiqatların istiqamətini müəyyənləşdirməyə imkan verdi.

Araşdırma zamanı Kültəpə yaşayış yerindən xeyli miqdarda obsidian parçaları, obsidian alətlər, sümük alətlər və keramika məmulatı aşkar olunmuşdur. 2013-cü il mövsümündə keramika məmulatı daha çox B sahəsində aşkar olunmuşdur. Keramika

məmulatının bir qismi Erkən Tunc dövrünə aiddir. Demək olar ki, Erkən Tunc dövrünün bütün mərhələləri təmsil olunmuşdur. Erkən Tunc dövrünə aid keramika məmulatının bir qismi qara, bir qismi isə çəhrayı rənglidir. Çəhrayı və qara rəngli bəzi parçaların saman qarışıq gildən hazırlanması diqqətçəkicidir. Eneolit mədəniyyətinin xüsusiyyətlərini daşıyan Kür-Araz keramikası vaxtilə O.H.Həbibullayevin qazıntıları zamanı da aşkar olunmuşdu (Абибуллаев 1982, с. 130). Yeni tapıntılar bu yaşayış yerində Kür-Araz mədəniyyətinin ilk mərhələsinin Kültəpədə mövcud olduğunu bir daha təsdiq edir. Keramika məmulatının bəzisinin içərisində daraqvari alətin izləri saxlanmışdır. Məlum olduğu kimi, bu tip keramika Naxçıvanda Şortəpə, I Maxta və Ərəbyengicə və digər yaşayış yerlərində də aşkar olunmuşdur. Ovçulartəpəsindən götürülən kömür analizlərinin nəticələri Kür-Araz mədəniyyətinin Naxçıvanda e.ə. V minilliyin sonunda formalaşdığını deməyə imkan verir.

Keramika məmulatının böyük bir qismi Son Neolit və Eneolit dövrünün əvvəllərinə aiddir. Bu dövrə aid keramika başlıca olaraq qırmız rəngdə saman qarışığı çox olan gildən bişirilmişdir. Qablar əldə hazırlanmış qeyri-bərabər bişirilmişdir. Bəzi parçaların üzərində həsir izləri qalmışdır. Qabların oturacağı başlıca olaraq yastıdır. Bu Ovçulartəpəsinin yuvarlaq oturacaqlı qabları ilə kontrast təşkil edir. Belə hesab edirik ki, bu fərq xronoloji fərqdir. Kültəpənin keramika məmulatının hazırlanmasında Neolit dövrü üçün xarakterik xüsusiyyətlər izlənir (Şəkil 1). Bu xüsusilə qabların formasında özünü aydın göstərir. Onlar başlıca olaraq qabarıq və silindrik formalıdır. Qabların qaba hazırlanmış yastı oturacaqları xaricə doğru çıxıntılıdır. Bəzi keramika məmulatında yuvarlaq, yaxud yastı qabarıq bəzəmələr vardır. Bu tip bəzəmələr başlıca olaraq Neolit keramikası üçün xarakterikdir. Bu tip qablar O.H.Həbibullayevin qazıntıları zamanı "1a" və "1b" təbəqələrində aşkar olunmuşdur (Həbibullayev, 1959, tablo, 19-25). Şübhə yoxdur ki, Kültəpənin keramikası Neolitin dövrünün sonu üçün xarakterik xüsusiyyətlərə malikdir.

Araşdırmalar zamanı aşkar olunan arxeoloji materialların bir qismi obsidian alətlərdən ibarətdir. Ümumiyyətlə həm obsidian alətlərin çox rastlanması, həm də xeyli miqdarda istehsal çıxarının aşkar olunması alətlərin yaşayış yerində emal edilərək hazırlandığını təsdiq edir. Məlum olduğu kimi, I Kültəpə yaşayış yeri vaxtilə Cənubi Qafqaz abidələrinin Naxçıvan-Mil-Muğan ərazi qrupunda xarakterizə olunmuşdur (Мунчаев, 1982, с. 93-131). Bu qrupun xarakterik cəhəti saman qarışıq keramikanın üstünlük təşkil etməsidir. Bununla belə, Şimal-Qərbi İran (Cənubi Azərbaycan), Ararat vadisi və Şərqi Anadolu ilə gözəçarpan bənzərliklər vardır. Fikrimizcə, bu tayfalararası əlaqələrin intensivliyi ilə bağlı olmuşdur. Uzaq ərazilərlə iqtisadi əlaqələrin olduğu

obsidian məmulatının istifadəsi ilə də təsdiq olunur. Bəlli olduğu kimi, Naxçıvanda və İranda obsidian yataqları yoxdur. Ən yaxın obsidian yataqları Zəngəzur silsiləsindədir. Lakin təccübləndiricidir ki, Kültəpə sakinləri Göyçə hövzəsində yerləşən Göyhasar və Qutansar (Бадалян, Кикодзе, Коль, 1996, с. 257) kimi uzaqda yerləşən obsidian yataqlarından da istifadə etmişlər. Kültəpə obsidianının böyük hissəsi Göyhasar (50%) və Sünikdən (28%) gəlmişdir. Digər yataqların obsidianı azdır. Kültəpə Göyhasar obsidianına görə, indiki Ermənistan abidələri də daxil olmaqla, Araz vadisində üstün mövqeyə malik olmuşdur. Tədqiqatlar göstərir ki, Mərənd yaxınlığında yerləşən Kültəpə abidəsində başlıca olaraq Sünik obsidianından istifadə olunmuşdur (Farhang Khademi et al., 2013, p. 1964). Əliköməktəpəsi obsidianının böyük bir qismi (85%) Sünikdən gətirilmişdir (Бадалян, Кикодзе, Коль, 1996, с. 259). Urmiya hövzəsində yerləşən yaşayış yerləri də başlıca olaraq Sünik obsidianından istifadə etmişdir. Tədqiqatçılar Sünik obsidianının Naxçıvan ərazisindən keçərək İrana, həmçinin Urmiya hövzəsinə yayıldığını düşünməkdədirlər (Farhang Khademi et al., 2013, p. 1964). Ehtimal ki, Kültəpə yaşayış yerinin strateji cəhətdən əlverişli mövqedə olması digər yaşayış yerlərini də obsidianla təmin etməyə imkan vermişdir.

# KÜLTƏPƏDƏ 2014-CÜ İLİN ARXEOLOJİ ARAŞDIRMALARI

2014-cü ildə Naxçıvanda Neolit dövrünün yeganə abidəsi olan I Kültəpədə tədqiqatlar davam etdirilmişdir. Məlum olduğu kimi, bəzi tədqiqatçılar bu abidənin Neolit dövrünə aid olmasına şübhə ilə baxırdılar. Bu məsələni aydınlaşdırmaq məqsədi ilə I Kültəpə yaşayış yerində və onun ətrafında araşdırmalar genişləndirildi. Tədqiqatların nəticəsində Naxçıvanda Son Neolit və Eneolit dövrünə aid yeni abidələrin olduğu müəyyən edilmişdir. İlk tədqiqat işləri I Kültəpə abidəsində aparılmışdır. 2013-cü ildə yaşayış yerində 5x5 m ölçüdə iki qazıntı sahəsi açılmış (A və B sahəsi), iki sahədə isə kəsiklər təmizlənilərək yaşayış yerində mədəni təbəqənin xüsusiyyətləri və abidənin stratiqrafiyasını dəqiqləşdirmək üçün cəhd göstərilmişdir. Bu qazıntılar müəyyən uğurla nəticələnsə də Sovet dövründəki qazıntının dərinliyi müəyyən etmək mümkün olmamışdır. Odur ki, 2014-cü ildə tədqiqatlar davam etdirilmiş, abidənin stratiqrafiyasını müəyyən etmək üçün C şurfu (2x5 m) qoyulmuşdur. Tədqiqat zamanı bu sahədə hələ Sovet dövründən qalma xeyli məişət tullantılarının olduğu müəyyən edilmişdir. Tədqiqatın gedişində Sovet dövründəki qazıntıların dərinliyi müəyyənləşdirilmiş, abidənin tarixini müəyyən etmək üçün karbon nümunələri əldə edilmişdir. Tədqiqat zamanı Neolit və Eneolit dövrünə aid maddi mədəniyyət nümunələri əldə edilmişdir. Aparılan araşdırmalar zamanı O.H.Həbibullayevin müəyyən etdiyi bəzi səviyyələri müəyyənləşdirmək mümkün olmuşdur ki, bu da abidənin yenidən tarixləndirilməsi üçün olduqca əhəmiyyətlidir.

2014-cü ildə C sahəsi ilə yanaşı A sahəsində də qazıntılar genişləndirilmişdir (10x10m). Bu sahədə aparılan qazıntılar zamanı Son Neolit dövrünə aid əmək alətləri, keramika məmulatı və tikinti qalıqları aşkar edilmişdir. Divar qalıqlarının bəzisi düz, bəzisi oval planlıdır. Araşdırma zamanı döşəmə qalıqları, onun üzərində toplanmış keramikaya təsadüf edilmişdir. Divarlar güclü eroziyaya uğradığından yaşayış binalarının planını müəyyənləşdirmək mümkün olmamışdır. Lakin döşəmələrin altında bir neçə skelet qalığı aşkar olunmuşdur. Skeletlər bükülü vəziyyətdə dəfn edilmiş və çox pis saxlanmışdı.

2014-cü ildə qazıntılar B sahəsində (5x5 m) də davam etdirilmişdir. Sahədə tədqiqatların 2 m dərinliyə çatmasına baxmayaraq müasir dövrə aid məişət qalıqları aşkar olunmaqda idi. Lakin sahənin şimal-şərq hissəsində sağlam təbəqənin olduğu müəyyən edilmişdi. Bu hissədə aparılan qazıntılar zamanı Son Neolit dövrünə aid tikinti qalıqları, əmək alətləri və keramika məmulatı aşkar olunmuşdur. Qazıntı 1,8 m dərinliyə çatdıqda divar qalığına rast gəlindi. Divarın eni 50 sm idi. Divarın şimal tərəfində 1,5x1,5 m sahədə döşəmə qalıqları, döşəmənin üzərində keramika parşaları aşkar olundu. Tədqiqat zamanı kiçik bir hissəsi saxlanılan divar qalığının dairəvi formada olduğu müəyyənləşdirildi. Lakin bu divar tamamilə eroziyaya uğrayaraq dağılmışdı. Dairəvi formalı evin içərisindən obsidiandan hazırlanmış əmək alətləri aşkar olundu.

İkinci divar qalığı qazıntı sahəsinin cənub hissəsində aşkar olundu. Bu divar düz planlı idi. Divarın saxlanmış hissəsinin qalınlığı 10 sm, eni 0, 4 m, uzunluğu 1, 8 m idi. Onun içəri tərəfində iki ədəd dördkünc formalı çıxıntı var idi. Divarın ətrafında aparılan təmizləmə işləri zamanı əmək alətlərinin parçaları və bir bəzək əşyası aşkar olunmuşdur.

Qazıntı zamanı müəyyən edildi ki, bu hissə təpənin ətəyi olduğundan sonrakı dövrlərdəki məskunlaşma zamanı təbəqə bu hissədə qarışmışdır. Sahənin kiçik olması isə məişət təsərrüfat komplekslərini müəyyənləşdirməyə çətinlik törədirdi. Odur ki, mədəni təbəqənin sağlam olduğu hissədə yeni qazıntı sahəsi qoymaq qərarlaşdırıldı. Yeni qazıntı sahəsi D kodu ilə işarələndi.

D sahəsində tədqiqatlar 6x10 m ərazidə davam etdirildi və Son Neolit dövrünə aid yaşayış binalarının qalıqları əldə edildi. Araşdırmalar zamanı evlərin dairəvi, oval və dördkünc formalı olduğu müəyyən olundu. Evlərin yaxınlığında dairəvi formalı iş yerlərinin qalıqları, əmək alətlərinin olduğu aşkara çıxarıldı.

Birinci divar qalığı yer səthindən 5 sm dərinlikdə, qazıntı sahəsinin cənubunda aşkar olundu. Divar yarımdairəvi formalı idi. Böyük bir hissəsi sahədən kənara çıxırdı. Onun planını izləmək üçün qazıntı sahəsi cənuba doğru genişləndirildi (1x5 m). Nəticədə divarın böyük bir hissəsi aşkar olundu. Binanın diametri 3, 29 m idi. Dairəvi formalı binanın içəri tərəfində diametri 0,7 m olan ocaq var idi. Ocaq təmizlənərkən keramika və heyvan sümüyünün qalıqları aşkar olundu. Dairəvi formalı binanın yaxınlığında, onun şərq tərəfində dördkünc formalı otağın qalıqları da aşkar olundu. Bu otağın uzunluğu 2, 7 m, salamat qalan hissəsinin eni 65-70 sm idi. Onun da mərkəzi

hissəsində dairəvi formalı ocaq var idi. Ocağın diametri 1, 9 m idi. Ocaq təmizlənərkən keramika, heyvan sümükləri və obsidian alətlərin qalıqları aşkar olundu.

Araşdırmalar bu böyük divarın bir neçə tikinti dövrü ərzində istifadə olunduğunu və yaşayış binalarını əhatə etdiyini göstərir. Onun cənub-qərb tərəfində arakəsmə divarlarla seqmentşəkilli bölüm yaradılmışdı. Ehtimal ki, bu bölüm ərzaq ehtiyyatı saxlamaq üçün istifadə olunmuşdur. Bu hissədən gil qab parçaları aşkar olundu. Bu hissədə həmçinin dairəvi formalı iş yerinin qalıqları da aşkar olundu. Ocağın içərisində bir neçə yerdə kiçik həcmli, dairəvi formalı ocaqların da aşkar olunması yaşayış sahəsinin tez-tez dəyişdiyini göstərir. Bu evin ətrafında aparılan tədqiqatlar zamanı dairəvi formalı ocaqlar aşkar olunmuş, qazıntı sahəsinin şimal tərəfində bir yerə yığılmış iri həcmli dən daşları onun yaxınlığında isə dairəvi formalı iş yerininin olduğu müəyyən edilmişdir.

İkinci tikinti qatı qazıntı sahəsinin şimal yarım hissəsində, bəzən düz, bəzən də oval planlı olan kərpic divarların qalıqlarından ibarətdir. Divar qalıqlarının eni 25-45 sm arasında dəyişir. Bu sahədə dairəvi formalı iş yerlərinin və ocaqların qalıqları, həmçinin dən daşları aşkar olunmuşdur. Bu hissənin qədim insanlar tərəfindən istifadə olunan iş sahəsi olduğunu demək olar. Ehtimal ki, bu divar iş yerlərini və yaşayış sahəsini əhatə etmişdir.

Üçüncü tikinti qatı iri dairəvi binanı iki hissəyə bölən kərpic divarın qalıqları ilə təmsil olunmuşdur. Yarım dairəvi divarla bu divar arasında ocaqlara və dairəvi formalı iş yerlərinə rast gəlindi. Digər qismdə isə keramika parçaları və əmək alətlərinin qalıqları aşkar olunurdu.

Dördüncü tikinti qatına iki binanın qalığı aiddir. Onların biri dairəvi formalıdır. Binanın bir qismi qazıntı sahəsindən kənara çıxmışdır. Diametri 1, 85 sm-dir. Divarların eni 23-25 sm-dir. Bu binanın içərisi təmizlənərkən bəzi yerlərdə daş döşəmə qalıqları aşkar olunmuşdur. Evin içərisindən keramika məmulanı, əmək alətlərinin qalıqları, heyvan sümükləri, obsidian və çaxmaqdaşı parçaları aşkar olunmuşdur.

İkinci bina oval formalıdır. Bu binanın da bir qismi qazıntı sahəsindən kənara çıxmışdır. Evin içərisində daş döşəmə qalıqları, keramika nümunələri, daş həvəng, obsidian parçaları və heyvan sümükləri aşkar olunmuşdur. Evin diametri 1, 9-1, 7 m arasındadır. Divarın eni 20 sm-dir. Divar 13-15 sm hündürlüyündə saxlanmışdır. Onun içərisində dairəvi formalı ocaq olmuşdur.

Arxitektura qalıqlarının araşdırılması onların bir sıra kərpicdən inşa edildiyini təsdiq edir. Lakin onlar güclü eroziyaya məruz qaldığından kərpiclərin ölçüsünü müəyyən etmək mümkün olmamışdır.

Beşinci tikinti qatına qazıntı sahəsinin cənubunda aşkar olunan dairəvi formalı ocaq yeri aiddir. Onun diametri 1, 2 m, divarının qalınlığı 26 sm-dir. İçərisi qara rəngli küllə dolmuşdu. İçərisindən keramika və heyvan sümükləri aşkar olunurdu. Bu tikinti qatına həmçinin dairəvi formalı iş yeri də aiddir. Onun diametri 1, 10-1, 55 m arasında idi. İş yerinin qərb tərəfində diametri 30-33 sm olan dairəvi formalı ocaq aşkar olunmuşdur.

2013-cü ildə aparılan araşdırmalar zamanı ikinci kəsikdə təmizləmə işləri başa çatdırılmamışdı. Bu il həmin kəsikdə araşdırmalar davam etdirilmiş və abidənin böyük bir qisminin kəsiyi alınmışdır. Burada aparılan araşdırmaların digər sahədəki tədqiqatlarla, xüsusilə C sahəsindəki tədqiqatlarla müqayisəsi abidənin ümumi stratiqrafiyasını müəyyən etməyə imkan verəcəkdir.

Arxeoloji tədqiqatlar zamanı aşkar olunan arxeoloji materialların əksər hissəsi keramika məmulatından ibarətdir. Keramika məmulatı başlıca olaraq saman qarışığı olan gildən hazırlanaraq bəzən yaxşı, bəzən isə qeyri-bərabər bişirilmişdir. Qabların divarları arasında bişməmiş boz, yaxud qara rəngli lay vardır. Qabların xarici səthi yaxşı cilalanmışdır. Keramika məmulatının əksər hissəsi çəhrayı rəngdə bişirilmiş, cilalanmışdır. Rəng tonları sarı və qəhvəyi arasında dəyişməkdədir. Boz rəngli keramika məmulatı olduqca azdır. Qabların çeşidi də azdır. Küpə tipli qablar az miqdardadır. Onlar başlıca olaraq silindrik-qabarıq gövdəli banka tipli qablardan və kasalardan ibarətdir. Kasa tipli qablar konusvari, bəzən isə silindrik konusvari formadadır. Onlardan bəzisinin ağzının kənarında silindrik deşiklər açılmışdır. Deşiklər açılma texnikasına görə Eneolit qablarında olan deşiklərdən fərqlənir. Araşdırma deşiklərin qab bişirildikdən sonra açıldığını göstərir. Banka tipli qabların oturacağı xaricə doğru çıxıntılıdır. Bəzi qabların gövdəsinin yuxarı hissəsində yastı-silindrik qulpşəkilli çıxıntılar var.

Keramika məmulatı Cənubi Qafqazın, o cümlədən Azərbaycanın Neolit keramikası ilə bənzərdir. Bu tip keramika məmulatı Şomutəpə, Molla Nağı təpəsi, Göytəpə, Urmiya hövzəsində Hacı Firuz yaşayış yerindən məlumdur. D sahəsindən götürülən kömürün analizi e.ə. 6014-cü ili göstərmişdir.

Əmək alətləri daşdan və sümükdən hazırlanmışdır. Alətlərin bir qismi obsidian və çaxmaqçdaşındandır. Ümumiyyətlə, araşdırmalar Kültəpə yaşayış yerində obsidian alətlərə üstünlük verildiyini təsdiq edir.

2013-2014-cü illərdə aparılan araşdırmalar zamanı I Kültəpə ətrafında Eneolit dövrünə aid xeyli abidənin olduğu müəyyən edilmiş, bu abidələrin Cənubi Qafqazın xammal mənbələrinə, xüsusilə obsidian yataqlarına gedən yol üzərində olduğu ehtimal edilmişdi[6]. Bu məsələni ətraflı araşdırmaq və I Kültəpə ətrafındakı məskunlaşmanın tarixini dəqiqləşdirmək məqsədilə bu abidələrin bir neçəsində araşdırma aparıldı. Araşdırma obyekti olaraq Şorsu və Zirincli yaşayış yerləri seçildi.

Şorsu yaşayış yeri Babək rayonunun Sirab kəndi yaxınlığında Sirabçayın sol sahilində yerləşir. Bu yaşayış yerində 2013-cü ildə 10x10 m sahədə tədqiqat aparılmışdı. 2014-cü ildə yaşayış yerində 10x10 m sahədə qazıntı aparıldı. Beləliklə yaşayış yerindəki ümumi tədqiqat sahəsi 200 kv m çatdı. Tədqiqat nəticəsində mədəni təbəqənin 15-25 sm-dən artıq olmadığı müəyyənləşdirildi. Qazıntı sahəsinin şərq hissəsində dördkünc formalı daş düzümü, onun içəri tərəfində küpə, kasa və dolça tipli qabların parçaları aşkar olunmuşdur. Dördkünc formalı evin ətrafında da gil qabların parçaları, daş alətlər var idi. Dördkünc formalı binaların qalıqları 2013-cü ildə aparılan araşdırmalar zamanı da aşkar olunmuşdu. Aşkar olunan materialların əksəriyyəti keramika məmulatından ibarətdir. Keramika məmulatının analizi onların müxtəlif dövrlü olduğunu göstərir. Onların müəyyən qrupu Son Eneolit dövrqnə aiddir. Bununla belə Neolit dövrünün sonunu və Eneolitin əvvəllərini əks etdirən keramika da vardır. Obsidian və çaxmaqdaşından hazırlanan əmək alətləri olduqca az miqdardadır. Araşdırma zamanı yaşayış yerinin yalnız təpənin ətəyini əhatə etdiyi müəyyənləşdirilmişdir.

Zirincli yaşayış yeri Sirab kəndindən şimalda, Sirabçayın sol sahilində dağ ətəyində yerləşmişdir. Yaşayış yeri sel sularının yuyub açdığı yarğanlarla bir neçə hissəyə bölünmüşdür. Keramika məmulatı və əmək alətlərinin xeyli hissəsi eroziya nəticəsində yer səthinə çıxmışdır. Yaşayış yerində 200 kv m sahədə tədqiqat aparılmışdır. Sahələrin birində (10x10 m) aparılan tədqiqat zamanı mədəni təbəqənin eroziya nəticəsində dağıldığı, olduqca az saxlandığı müəyyən olunmuşdur. Araşdırma zamanı xeyli miqdarda keramika nümunələri aşkar olunmuşdur. İkinci sahədə aparılan araşdırmalar zamanı da mədəni təbəqənin sel suları tərəfindən yuyulduğu müəyyən

[6] Bu iş Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyə yardımı ilə yerinə yetirilmişdir, qrant № EİF-2012-2(6)-39/28/5/. Araşdırmalara həmçinin Fransa Milli Araşdırmalar Mərkəzi maliyə yardımı etmişdir.

olunmuşdur. Bu sahədə yarımqazma tipli evin qalıqları, torpağa basdırılmış iri küplər aşkar olunmuşdur.

Tədqiqatlar zamanı abidənin üzərindən həmçinin bütöv qablar, əmək alətlərinin parçaları, obsidian və çaxmaqdaşından hazırlanmış oraq dişləri də aşkar olunmuşdur.

I Kültəpə yaşayış yerinin yaxınlığında şərti olaraq Uzunoba adlandırılan yeni yaşayış yeri aşkar olunmuşdur. Yaşayış yerinin bir hissəsi təsərrüfat işləri görülərkən traktor tərəfindən dağıdılmışdır. Yaranan kəsikdə döşəməyə basdırılmış iri küplər, obsidian alətlər, keramika və osteoloji qalıqlar görünməkdədir. Keramika məmulatı arasında boya ilə və daraqvari alətlə naxışlanan nümunələr də vardır. Geomorfoloji araşdırmalar nəticəsində bu yaşayış yerinin 1,5-2 m qalınlığında lil qatı ilə örtüldüyü müəyyən olunmuşdur. Aşkar olunan keramika məmulatı əsasən Eneolit dövrü üçün xarakterikdir. Şübhəsiz ki, bu abidənin gələcəkdə tədqiqi tariximizin öyrənilməsi üçün mühüm əhəmiyyətə malik olacaqdır.

Belə hesab edirik ki, I Kültəpə ətrafındakı abidələrin gələcəkdə araşdırılması Azərbaycan arxeologiyasının yeni səhifələrinin yazılmasına imkan verəcəkdir.

# I KÜLTƏPƏ ƏTRAFINDAKI ARXEOLOJİ ABİDƏLƏRİN VƏ KERAMİKA MƏMULATININ TƏSNİFİ

Naxçıvanda uzun illərdən bəri arxeoloji araşdırmalar aparılmasına baxmayaraq, bu diyarın qədim mədəniyyətlərinin meydana gəlməsi və inkişafı ilə bağlı bir sıra problemlər indiyədək həll edilməmişdir. Bu baxımdan 2010-2014-cü ildə Babək rayonunun Sirab kəndi yaxınlığında aparılan araşdırmalar xüsusilə diqqətçəkicidir. Tədqiqat zamanı tarixi inkişafın müxtəlif mərhələlərinə, o cümlədən Neolit, Eneolit, Tunc, Dəmir və Orta əsr dövrünə aid xeyli maddi mədəniyyət nümunəsi aşkar olunmuşdur. Aşkar olunan yeni tapıntılar tarixin müxtəlif inkişaf mərhələlərində Naxçıvanda yaşayan əhalinin həyat tərzini öyrənmək baxımından olduqca əhəmiyyətlidir. Yeni tapıntılar qədim insanların qapalı həyat tərzi keçirmədiyini, ətraf aləmlə yaxşı tanış olduqlarını bir daha təsdiq edir.

**Daşqala mağarası** Sirab kəndindən şimal-şərqdə yerləşən təbii mağaradır. Mağaranın girişi geniş və hündürdür. Girişdən qayalığın içərisinə doğru iki istiqamətdə yol vardır. Onların biri yaxınlıqda olan böyük salona açılır. Digəri isə mağaranın içərisinə doğru gedərək bir neçə dəfə şaxələnir. Mağaradan uzun müddət heyvan ağılı kimi istifadə olunduğundan onun içərisində qalın peyin qatı vardır. Tədqiqat zamanı mağarada insanların məskunlaşması ilə bağlı qədim maddi mədəniyyət nümunələrinə rastlanmamışdır. Mağaranın girişindən Eneolit dövrünə və Son Orta əsrlərə aid bir neçə keramika parçası aşkar olunmuşdur.

Sirab kəndi yaxınlığında Eneolit dövrünə aid yaşayış yerləri bir neçə yerdə qeydə alınmışdır. **Zirincli yaşayış yeri** Sirab kəndindən şimal-şərqdə hündür dağın ətəyində, dağ çayının sol tərəfində yerləşir. Dağıın ətəyi terraslanaraq terraslar boyunca zirinc kolları əkilmiş və yaşayış üçün əlverişli şərait yaradılmışdır. Yaşayış yeri təbii yarğanlarla bir neçə hissəyə bölünmüşdür. Burada aparılan araşdırmalar zamanı Eneolit dövrünə aid xeyli keramika məmulatı aşkar olunmuşdur. Qeyd etmək lazımdır ki, bu yaşayış yerindən digər dövrlərə aid maddi mədəniyyət qalıqlarının aşkar olunmaması onun yalnız Eneolit dövründə istifadə olunduğunu göstərir.

Aşkar olunan keramika məmulatı başlıca olaraq küpə və kasa tipli qabların parçalarından ibarətdir (Şəkil 2; Şəkil 3; Şəkil 4). Onların hamısı saman qarışıq gildən hazırlanaraq qırmızı, bəzən isə sarı rəngdə bişirilmişdir. Onlar arasında ağzının kənarı

geriyə qatlanan küpə tipli qablar üstünlük təşkil edir (Şəkil 2, 1, 3-5; Şəkil 4, 3). Küpələrin bəzisi silindrik boğazlıdır (Şəkil 2, 6). Bəzi küpələrin boğazı içəriyə doğru batıqdır (Şəkil 2, 6; Şəkil 3, 4; Şəkil 4, 5). Küpələrdən bəzisinin ağzının altında kiçik deşik açılmışdır (Şəkil 3, 3). Bu küpə saman qarışığı olan gildən hazırlanaraq sarı rəngdə bişirilmişdir. Bundan başqa üzərində üç deşiyi olan bir qab parçası da aşkar olunmuşdur (Şəkil 3, 6). Küpələrin biri boz rənglidir. Saman qarışıq gildən hazırlanmışdır. Ağzının kənarı xaricə qatlanmış və oval batıqlarla naxışlanmışdır (Şəkil 3, 1).

Kasaların birinin ağzının kənarı xaricə qatlanmış, gövdəsi isə yuvarlaqdır (Şəkil 2, 2). Saman qarışıq gildən qırmızı rəngdə bişirilmişdir. İkinci kasa konusvari gövdəli olub ağzının kənarında deşik açılmışdır. Ağzının kənarı bir qədər içəri yığılmışdır (Şəkil 3, 5). Üçüncü kasa silindrik-konusvari formalıdır (Şəkil 4, 1). Bundan başqa qabarıq gövdəli kasa tipli qab da diqqətçəkicidir (Şəkil 4, 2). Bir nümunə ilə təmsil olunan bu qab saman qarışıqlı və qırmızı rənglidir.

Bu yaşayış yerindən aşkar olunan keramika məmulatı Eneolit dövrünün erkən və orta mərhələsi ilə tarixləndirmək olar. Zirincliyin keramika nümunələrində daraqvarı alətin izlərinə demək olar ki, rastlanmamışdır. Zirinclidən aşkar olunan bir kasanın bənzərləri Tülintədən, digər kasa və küpələrin bənzərləri isə Cənubi Qafqaz və Şərqi Anadolunun müxtəlif abidələrindən bəllidir. Qabarıq (Şəkil 4, 2) konusvari (Şəkil 3, 5) və silindrik-konusvari kasaların bənzərləri (Şəkil 4, 1) Eneolit dövrünün erkən və orta mərhələsindən məlumdur. Bu tip küpə və kasalar I Kültəpə (**Абибуллаев 1982**, **tabl. IX**), Keçili (**Нариманов 1987, рис. 35, 11**), Böyük Kəsik (**Müseyibli 2007, tabl. XXIII** ) İlanlıtəpə, Tülintəpə, Kurban Höyük, Sioni (**Connor and Sagona 2007, pl. 4**), Arataşen (**Palumbi 2007, fig. 2, 2, 4**) və digər abidələrdə rastlanmışdır (**Кушнарева, Чубинишвили 1970, с. 41-50**). Ağzının kənarı xaricə qatlanmış qısa boyunlu küpələrin (Şəkil 2, 5) bənzərləri I Kültəpə (**Абибуллаев 1982, tabl. IX, 1-4**), Leylatəpə (**Akhundov 2007, fig. 10, 7**), Böyük Кəsiк (**Akhundov 2007, fig. 16, 3**) Yanıqtəpə (**Burney; Кушнарева, Чубинишвили 1970, с. 45, рис. 17, 4**), Doğubəyazit (**Marro and Özfirat 2005, pl. VI, 4**) Norşuntəpə (**Gülçur 1988, tabl. 15, 1; tabl.55, 3; tabl. 66, 18**), Arslantəpə VII (**Frangipane 2000, fig. 2, 22**) , Değirmentepe, Hanaqo (**Marro 2007, pl. V, 4**) Sarıgül (**Marro 2007, pl. VIII, 5**) abidələrində rastlanmışdır. Ağzının kənarı azacıq xaricə qatlanmış küpələrin bənzərlərinə Norçuntəpədə (**Gülçur 1988, taf. 64, 2** ) və Böyük Kəsikdə (**Müseyibli 2007, tablo XIII, 4**) rast gəlinir.

Sirab ətrafındakı abidələrdən aşkar olunan keramika məmulatinin tədqiqi onların başlıca olaraq Eneolit dövrünün sonlarına aid olduğunu göstərir. Lakin olduqca qaba

hazırlanan bəzi keramika parçaları Eneolit dövrünün əvvəllərinə də aid edilə bilər. Bu xüsusilə Son Eneolit dövrünün sarı rəngli keramikasından fərqlənən qırmızı rəngli saman qarışıq qaba keramikaya aid edilə bilər. Zirincli yaşayış yerindən aşkar olunan keramika saman qarışıq qırmızı rəngli keramika məhz bu xüsusiyyətləri ilə fərqlənir.

Ərazinin bol otlaqları, gursulu çayları, həmçinin bu ərazinin təbii mağaralar və qayaaltı sığınacaqlarla zəngin olması qədim insanların burada məskən salması üçün şərait yaratmışdır. Araşdırmalar zamanı yaşayış yerlərindən xeyli obsidian qəlpələrinin və nukleusların aşkar olunması, hətta Qahabçay hövzəsində misin mineralları olan malaxit və azuritə rastlanması qədim insanların xammal ehtiyatları ilə tanış olduqlarını göstərir. Şübhəsiz ki, xammal əldə etmək istəyi də insanların geniş əraziyə yayılmasında müəyyən rol oynamışdır. Bu baxımdan Zirincli yaşayış yerində xeyli miqdarda mis filizinin qalıqlarına rastlanılması olduqca maraq doğurur. Zirinclidə 2010-cu ildə fransız arxeoloqları ilə birlikdə aparılan araşdırmalar zamanı xeyli miqdarda keramika, mis filisinin qalıqları aşkar olundu. Onlar arasında yastı, tiyəşəkilli baltalar tökmək üçün hazırlanmış qəliblər bu yaşayış yerinin mis filizi çıxarılmasında və emalında müəyyən yer tutduğunu göstərir. Bu tip qəliblərdə tökülən baltalara Azərbaycan və Cənubi Qafqazın Erkən Tunc dövrü abidələrində rastlanır. Bu tip baltalar həmçinin Ovçular Təpəsinin Eneolit dövrünə aid küp qəbirlərdən birində aşkar olunmuşdur. Böyük ehtimalla mövsümi xarakterli Zirincli yaşayış yeri bu sahədə müəyyən təcrübə qazanmış insanlara məxsus olmuşdur.

**Şorsu yaşayış yeri** Sirab kəndinin cənub-qərbindədir. Yaşayış yeri qurumuş çay vadisinin kənarında yerləşən kiçik təpəni və onun ətəklərini əhatə edir. Keramika məmulatı saman qarışıq gildən hazırlanaraq qırmizi rəngdə bişirilmişdir. Lakin qəhvəyi rəngli keramika nümunələrinə də rastlanır. Keramika məmulatı küpə və kasa tipli qabların parçaları ilə təmsil olunmuşdur. Küpələrin ağzının kənarı xaricə qatlanmışdır (Şəkil **6**, 1, 5), bəzi küpələr isə silindrik boğazlıdır (Şəkil **5**, 1). Bir nümunə ilə təmsil olunan oturacaq parçası yastıdır (Şəkil **5**, 14). Bu yaşayış yerindən aşkar olunan küpə tipli qabların bəzisi qəhvəyi rənglidir. Kasa tipli qabların üçü silindrik-konusvari formalıdır (Şəkil **6**, 2-4). Onlardan ikisinin ağzının kənarında kiçik deşik açılmışdır (Şəkil **6**, 2-3). Digər bir forma verməyən qabın gövdəsində iki deşik açılıb (Şəkil **5**, 6). Qablar saman qarışıq gildən hazırlanmış və qırmızı rəngdədir. Onlardan birinin xarici səthində batıq zolaqlar var (Şəkil **6**, 2). Kasa tipli qabların bəzisi konusvari formalıdır (Şəkil **5**, 5).

2013-cü ildə I Kültəpə yaşayış yerində və onun ətrafında aparılan araşdırmalar zamanı Neolit və Eneolit dövrünə aid yeni materiallar aşkar edilmişdir. 2014-cü ildə bu abidələrin birində-Şorsu yaşayış yerində 10x10 m sahədə qazıntı aparılmışdır. Tədqiqat zamanı müəyyən olmuşdur ki, yaşayış yerində təbəqə olduqca az saxlanmışdır. Mədəni təbəqə 15-20 sm qalınlığında, ağ rəngli çürüntü və keramika olan yoğrulmuş bərk torpaq qatından ibarət idi. Bu təbəqədə kül qalıqları və sümük qalıntıları aşkar olunmamışdır. Təbəqədə daha çox keramika, bəzən isə obsidian və çaxmaqdaşı qəlpələri aşkar olunurdu. Lakin obsidian və çaxmaqdaşı alətlərin sayı da çox məhdud idi. Tədqiqat zamanı dördkünc formalı daş düzümləri aşkar olundu. Biz bu daş düzümlərini yüngül konstruksiyalı evlərin qalığı kimi qeydə aldıq[7]. Qazıntı sahəsində üç belə ev yeri var idi (Şəkil 101). Onların birində döşəməyə basdırılmış iki təsərrüfat küpü aşkar olundu (Şəkil 101, 1001 и 1006; Şəkil 102). Yüngül konstruksiyalı evlərin suvağı döşəməyə tökülərək monolit kütlə halında birləşdiyindən evlərin döşəməsini müəyyən etmək olduqca çətin idi. Üçüncü təsərrüfat küpü evin içərisində deyil, onun yaxınlığında yerə basdırılmış halda aşkar olundu (Şəkil 101, 1007). Qeyd etmək lazımdır ki, evin yaxınlığında yerə basdırılmış təsərrüfat küpləri, bizim tədqiqatlarımız zamanı, Ovçulartəpəsindən də aşkar olunmuşdur[8]. Belə hesab edirik ki, yaşayış yerindəki hər bir ev ayrıca təsərrüfat vahidi olmuşdur.

Əmək alətləri dən daşları, obsidian və çaxmaqdaşından hazırlanmış oraq dişləri və sıyırğaclarla təmsil olunmuşdur. Dən daşları yalnız abidənin üzərindən tapılmışdır (6 ədəd). Onların hamısı sınmış vəziyyətdədir. Müxtəlif dövrlərdə işlədilən dən daşları tipoloji cəhətdən heç nə ilə fərqlənmir və xronoloji baxımdan yararlı deyil. Tuf daşından hazırlanmış iki ədəd sürtgəclər iki ədəddir.

Obsidian alətlər səkkiz nümunə ilə təmsil olunmuşdur. Onların hazırlanmasında şəffaf və qeyri-şəffaf obsidiandan istifadə olunmuşdur. Oraq dişləri beş ədəddir. Onlar prizmatik lövhələrdən hazırlanmış və birtərəfli retuşla işlənmişdir (Şəkil 32, 1-3, 5-8). Bəzi oraq dişləri çaxmaqdaşından və daşdan hazırlanmışdır.

Oyuqlu sıyırğaclar iki ədəddir. Onların biri trapesiyaşəkilli qəlpədən hazırlanmışdır. Bu alətin ağzı və yan tərəfləri birtərəfli retuşla işlənmişdir (Şəkil 32, 8). İkinci alət prizmatik lövhədən hazırlanmışdır. Bu alətin də ağzı və yan tərəfləri birtərəfli retuşla işlənmişdir (Şəkil 32, 7). Bu alətlərin yaxın bənzərləri Qafqazın Neolit

7 Bizim fikrimizə görə du daşlar yüngül konstruksiyalı dördkünc formalı evlərin ətrafına düzülmüşdür. Bu tip evlərin etnoqrafik paralelləri Naxçıvanda indi də mövcuddur.

8 Bu materiallar hələlik nəşr edilməyib.

abidələrindən, o cümlədə keramikasız Neolit mərhələsindən məlumdur (**Connor, Sagona 2007, plate 2, 10; Черлёнок, 2013, рис. 7, I-3**).

Arxeoloji tapıntıların böyük bir qismi keramika məmulatı ilə təmsil olunmuşdur. Hazırlanma texnologiyasına görə onları iki qrupa bölmək olar. Birinci qrupdakılar dörd nümunə ilə təmsil olunmuşdur. Onlar saman qarışığı olan qumsuz gildən hazırlanmış, qırmızı rəngdə yaxşı bişirilmiş, sarı rənglə anqoblanmış və yüngülcə cilalanmışdır. Onların üçü küpə tipli qabın parçasıdır, biri isə forma verməyən parçadır. Onun üzəri qırmızı boya ilə örtülmüşdür.

Keramika məmulatının böyük bir qismi ikinci qrupa aiddir. Keramika nümunələri hələlik petroqrafik analiz edilməmişdir. Bu qrupdakıların əksəriyyəti qum və saman qarışığı olan gildən hazırlanmışdır (90,1%). Bununla belə saman qarışığı bəzi nümunələrdə az, bəzilərində isə yüksək konsentratdadır. Qabların gilinə bəzən iri qum və çınqıl da qatılmışdır. Yalnız qum qarışığı olan keramika olduqca azdır (9,9%). Qablar qaba hazırlanmışdır. Onların xarici səthi nahamar və kələ-kötürdür. Lakin yaxşı sığallanmış qablar da vardır. Cilalama yoxdur. Onların hamısı əldə hazırlanmışdır. Bəzilərinin ağız kənarları əyri, bəzilərinin üzərində isə əl izləri var. Qablar yaxşı bişirilmişdir. Lakin pis bişirilən və divarlarında qalın bişməmiş lay olan nümunələr də çoxdur. Rəng tonları qırmızı rəngin müxtəlif çalarları ilə təmsil olunub. Sarı rəngli keramika azdır (4 ədəd). Onlar sarı rənglə də anqoblanmışdır. Boz-qara rəngdə bişirilən qablar da azdır (3 ədəd). Bəzən boz-qəhvəyi rəngli və hislənmiş nümunələrə də rastlanır. Bu rəng çalarları Hacı-Firuz yaşayış yerinin keramikasında da vardır (**Voigt, 1983, p. 99**). Keramika məmulatı küpə, kasa, çölmək, banka, kasa və podnoslarla[9] təmsil olunmuşdur.

Küpələr xaricə qatlanmış ağız kənarlı, silindrik, bəzən isə konusvari formalıdır (Şəkil 33, 1-4, 9-18). Onlar ağız kənarlarının formasına görə fərqlənirlər. Onların birinin ağzının altında qulaqcıqşəkilli relyef ornament bardır (Şəkil 33, 5). Bu tip ornamentlə naxışlanmış keramika Aknaşen-Xatunarx (**Badalyan et al., 2010, fig. 9-2, 22, 24**), I Kültəpə (**Абибуллаев, 1982, табл. IX, 1-4**), Şomutəpə (**Ахундов, 2012, с. 56, табл. 208, 4-108, 8-675**), Arataşen (**Palumbi, 2007, table 1, 6**) və digər abidələrdən məlumdur. Məlum olduğu kimi, bu tip ornament Cənubi Qafqazın, ocümlədən Azərbaycanın Neolit abidələrində geniş yayılmışdır. Bu tip bəzəmə Göytəpə və Aruxlodan da məlumdur (**Гулиев, Гусейнов, Алмамедов, 2009, s. 26-30; Kushnareva, 1997, fig. 9, 1-2**).

[9] Bu tip qablar bəzi tədqiqatçılar tərəfindən tava adlandırılmışdır (Badalyan et al., 2010. P. 192). Lakin Şorsu qablarının oturacağında his izləri olmadığından biz onları podnos adlandırırıqıq.

Çölməklər xaricə qatlanmış ağız kənarlı, geniş ağızlı, qabarıq gövdəlidir (Şəkil 33, 6-8) Çölmək tipli qablar Şomutəpədən məlumdur (**Ахундов, 2012, c. 56., табл. 208, 8-258**). Bu tip qablar həmçinin I Kültəpənin «1б» təbəqəsindən aşkar olunmuşdur (**Həbibullayev, 1959, c. 60**).

Kasalar daha geniş yayılmış formalardandır. Onlar qabarıq, silindrik-konusvari və konusvari gövdəlidir (Şəkil 34, 1-6, 7, 10, 12; Şəkil 35, 5, 7). Bəzi kasaların ağzının altı yuvarlaq deşiklərlə naxışlanmışdır. Bəzən içəridən açılan bu deşiklər natamam qalmışdır (Şəkil 34, 1-6, 13-20). Bəzi kasalarda isə deşiklər iki cərgədə yerləşir (Şəkil 34, 5). Ağız kənarında yuvarlaq deşik açılmış kasalar Qafqazın, o cümlədən Azərbaycanın Neolit abidələrindən məlumdur. Onlar I Kültəpədən (**Həbibullayev, 1959, тablo 19, 3**) Şomutəpədən (**Ахундов, 2012, c. 56, таблица 203, 7-14; 9-3; 10-458**), Xatunarxdan (**Badalyan et al., 2010, fig. 9-2, 1-4**) və Ararat vadisinin abidələrindən aşkar olunmuşdur (**Kushnareva, 1997, figure 10, 2-5**). Bu tip ornament həmçinin Macarıstanda Neolit dövrünə aid Böyük mədəniyyətinə aid keramika məmulatında rast gəlinir (**Археология Венгрии, 1980, рис. 125, 2; рис. 130**). Ağız kənarında deşik açılmış kasalar həmçinin Eneolit dövrünün müxtəlif mərhələlərində istifadə olunmuşdur. Onlar Araz vadisində Köhnə Pasqah (**Maziar, 2010, fig. 6**), Ovçulartəpəsi, Xələc (**Seyidov, Baxşəliyev, 2010, şəkil 14, 4**) və digər abidələrdən məlumdur. Bu onu göstərir ki, bu tip ornamentasiyadan uzun müddət istifadə olunmuşdur. Şorsu yaşayış yerində bu qabların müxtəlif tiplərinə rast gəlinir. Bəzi kasaların ağız kənarında qövsşəkilli çıxıntılar vardır (Şəkil 35, 3). Bu qabların bənzərlərinə Macarıstanda Böyük mədəniyyətinin keramikasında rast gəlinir (**Археология Венгрии, 1980, рис. 125, 1**). Qeyd etmək lazımdır ki, naxışsız Şorsu çölməklərinin yaxın bənzərləri Hacı-Firuzdan məlumdur (**Voigt, 1983, fig. 74**). Konus formalı kasalar (Şəkil 34, 10, 12) xüsulə bənzərdir.

Silindrik gövdəli, yaxud banka tipli qablar dörd nümunə ilə təmsil olunmuşdur. Onlardan birinin ağzının kənarında deşik açılmışdır (Şəkil 34, 8, 9, 19). Bu tip qablar I Kültəpənin «1a» və «1б» təbəqəsindən (**Həbibullayev, 1959, C. 59**) məlumdur. Onlar formaca Hacı-Firuz yaşayış yerinin analoji qabları ilə bənzərdir (**Voigt, 1983, fig. 74, f, g**).Belə qablar həmçinin Xatunarxdan məlumdur (**Badalyan et al., 2010, fig. 9-3, 1, 4, 6**). Qədəh tipli qab bir nümunə ilə təmsil olunub (Şəkil 35, 4). Bu tip qablar I Kültəpə yaşayış yerinin «1б» təbəqəsində (**Həbibullayev, 1959, tablo 24, 4-8**) və Ovçulartəpəsində (**Marro, Bakhshaliyev, Ashurov, 2009, pl.XVIII, 4**) aşkar olunmuşdur ki, bu da onların uzun müddət istifadə olunduğunu göstərir.

Bəzi qabların gövdəsində qabarıq çıxıntılar vardır (Şəkil 34, 11). Bu tip ornament Neolit abidələrinin keramika məmulatı üçün xarakterikdir. Cənubi Qafqaz, o cümlədən Azərbaycan abidələrində bu ornamentlərin müxtəlif formalarına rast gəlinir (**Həbibullayev, 1959, tabl. 22, 3-4; Badalyan et al., 2010, fig. 9-2, 2, 3, 5; Мусеибли, 2012, табл. VI, 7**).

Podnos tipli qablar beş nümunə ilə təmsil olunmuşdur. Bu tip qablar konusvari gövdəli olmuşdur. Ağız kənarında horizontal qulpları var. Ağız kənarının altı yuvarlaq deşiklərlə naxışlanmışdır (Şəkil 35, 1-2). Qabların bəzisi səliqəli, bəzisi isə olduqca qaba hazırlanmış, hər iki üzdən sığallanmışdır. Bu tip qablar Ararat vadisinin Neolit abidələrindən məlumdur (**Kushnareva, 1997, fig. 10, 2**). Eneolit dövrünün orta mərhələsinə aid edilən bu tip qablar həmçinin Köhnə Pasqah yaşayış yerindən aşkar olunmuşdur (**Maziar, 2010, fig. 7, 3-4**). Araşdırmalar bu tip qabların Araz vadisi üçün xarakterik olduğunu və uzun müddət istifadə olunduğunu göstərir. Maraqlıdır ki, bu tip qablar Ovçulartəpəsindən aşkar olunmamışdır.

Aşkar olunan keramikanın araşdırılması göstərir ki, qabların oturacağı yastı və bir qədər xaricə doğru çıxıntılı olmuşdur. Onların bəzisi olduqca kobud hazırlanmışdır. Üzərində qabarıq zolaqlar vardır. Ehtimal ki, bunlar barmaq izləridir (Şəkil 35, 8-11). Qabların oturacaqlarının forması Neolit qablarının oturacaqları ilə bənzərdir. Bu tip oturacaqlı qablar I Kültəpənin «1a» təbəqəsindən (**Həbibullayev, 1959, tabl. 20, 1-4**), Şomutəpədən (**Нариманов, 1987, рис. 10; Ахундов, 2012, табл. 211-216**), Molla Nağı təpəsində (**Мусеибли, 2012, табл. VI, 3-6**) və digər yaşayış yerlərindən məlumdur. Qablardan birinin oturacağında hörmə izləri saxlanmışdır (Şəkil 102). Bu qabların hörmə modellər əsasında hazırlandığını təsdiq edən faktlardan biridir. Maraqlıdır ki, digər yaşayış yerlərində bu tip izlər qabların xarici səthində olduğu halda (**Мусеибли, 2012, табл. VI, 3, 4**), Şorsu keramikasında içəri tərəfdədir.

Məlum olduğu kimi, Azərbaycanın şimal rayonlarında, Şomutəpə tipli abidələrdə başlıca olaraq qum qarışıq keramika üstünlük təşkil etmişdir. İ.H.Nərimanovun fikrinə görə, bu tip keramika başlıca olaraq Kür çayının orta axarlarında yayılmışdır. Şimalda bu tip keramika Dağıstana, cənubda isə Araz çayına və Ararat vadisinədək yayılmışdır (**Нариманов, 1987, с. 117**). Şomutəpə yaşayış yerində qum qarışıq keramika 85%, saman qarışıq keramika isə 15% -dir (**Ахундов, 2012, с. 53**). Başqa yaşayış yerlərində bu nisbət bir qədər dəyişir. Göytəpədə qum qarışıq keramika 38, 9 %-dir (**Гулиев, Гусейнов, Алмамедов, 2009, с. 28**). Buna bənzər faiz nisbəti həmçinin Ararat vadisinin abidələrində izlənməkdədir (**Badalyan et al., 2010, p. 192**). Lakin bu

abidələrdən fərqli olaraq Naxçıvan abidələrində samanlı keramika üstünlük təşkil edir. Bu I Kültəpənin (**Абибуллаев, 1982, с. 223**) və Şorsunun keramikasında da izlənir. Qeyd etmək lazımdır ki, I Kültəpənin keramikası sıx saman qarışığı olması ilə fərqlənir. İ.H.Nərimanovun fikrinə görə, Ararat vadisindən şərqdə qum qarışıq keramika məlum deyil (**Нариманов, 1987, с. 117**). Bu həmçinin Naxçıvanda son illərin araşdırmaları ilə də təsdiqlənir və Cənubi Azərbaycan, Mil və Muğan düzünün abidələri ilə bağlanan Naxçıvanın qəidim mədəniyyətinin özünəməxsus inkişaf yolu olduğunu təsdiq edir.

Əvvəlki illərdə aparılan araşdırmalar zamanı biz Şorsu keramikasının arxaikliyi ilə seçildiyini qeyd etmişdik. 2013-cü ildə aparılan tədqiqatlar bu ehtimalların düzgün olduğunu təsdiq etdi. Keramika məmulatının tipoloji analizi göstərir ki, Şorsu keramikası başlıca olaraq Urmiya hövzəsi, Şimal-Qərbi İran, Şərqi Anadolu, həmçinin Şərqi Avropanın materialları ilə bənzərdir. Bu abidələr e.ə VI-V minilliklərə aid edilir. Xatunarxın Neolit dövrü təbəqəsi e.ə. 5986-5054 –ci illərə aiddir (**Badalyan et al., 2010, p. 210**). I Həsənsudan götürülmüş kömür analizinin nəticələri e.ə. 5994-cü ili göstərmişdir (**Мусеибли, 2012, с. 43**). Hacı-Firuz (**Mellart, 1965, p. 74; Voigt, 1983, p. 351**) və Şomutəpə (**Нариманов, 1987, с. 78**) yaşayış yerləri də təxminən bu dövrə aiddir. Bu baxımdan ağzının kənarı deşikli podnosşəkilli qabların dövrü xüsusilə diqqətçəkicidir. Məlum olduğu kimi, bu tip qablar e.ə. IV minilliyin birinci yarısı ilə tarixlənən Son Eneolit dövrü abidələrində də vardır. R.S.Badalyan belə bir fikir irəli sürmüşdür ki, Xatunarx keramikasında deşiklərlə naxışlanan qablar kasa və qədəhlərlə təmsil olunmuşdu, daha doğrusu tava tipli qablar bu abidədə yoxdur (**Badalyan et al., 2010, p. 192**). Lakin Ararat vadisində bu tip qablar Neolit abidələrindən məlumdur. Köhnə Pasqah yaşayış yerində isə onlar e.ə. IV minilliyin əvvəli ilə, daha doğrusu, 3955-ci illə dövrləşdirilmişdir (**Maziar, 2010, p.171**). Ovçulartəpəsində isə bu tip ornament e.ə. 4350-4000-cü illərə aid keramika məmulatında izlənmişdir (**Marro, Bakhchaliyev, Ashurov, 2009, p. 54**). Araşdırmalar Neolit dövründə bu tip ornamentin geniş yayıldığını göstərir. Bu tip bəzəmələr I Kültəpənin «1a» təbəqəsindən, Şomutəpə və Xatunarxdan məlumdur. Bəzi tədqiqatçıların, o cümlədən O.H.Həbibullayevin (**Həbibullayev, 1959, s. 74**) fikrinə görə, erkən mərhələdə qaçların tipləri məhdud sayda olmuş, daha sonra isə onlar çoxalmışdır. Araşdırmalara əsasən demək olar ki, Neolit dövrünə aid keramika məmulatının bütün formaları hələlik bizə məlum deyil. Neolit dövrünün keramika ilə xarakterizə edilən mərhələsi tədqiqatçılar tərəfindən e.ə. VI minilliklərin hüdudlarında dövrləşdirilmişdir (**Connor, Sagona, 2007, p. 29; Badalyan et al., 2010, p. 191; Hansen, Mirtskhulava, Bastert-Lamprichs, 2009, p.**

**19; Гулиев, Гусейнов, Алмамедов, 2009, с. 28**). Eneolit dövrünün əvvəlləri isə e.ə. V minilliyin birinci yarısı (**Palumbi, 2007, p. 74**), bəzən isə e.ə. V minilliklə (**Connor, Sagona, 2007, p. 30**) tarixləndirilmişdir. Nəzərə alsaq ki, Şorsu keramikasının əksəriyyətinin bənzərləri Neolit abidələrindən məlumdur, o zaman Şorsu yaşayış yerini e.ə. VI ikinci yarısı və sonu ilə tarixləndirmək olar. Ehtimal ki, yaşayış yerində məskunlaşma müxtəlif dövrlərdə olmuşdur. Lakin mədəni təbəqənin incə olması müxtəlif dövrlərin stratiqrafiyasını və müddətini müəyyən etməyə imkan vermir. Belə hesab edirik ki, bu məsələ bu qrupa daxil olan abidələrin gələcəkdə araşdırması zamanı aydınlaşdırılacaqdır.

I Kültəpə ətrafında yerləşən arxeoloji abidələrin araşdırılması göstərir ki, ölkəmizin qədim sakinləri ətraf mühitlə yaxşı tanış imişlər və ehtimal ki, köçəri həyatı mənimsəmişdilər. Xatunarx yaşayış yerinin tədqiqi zamanı köçmə maldarlığa keçidlə bağlı faktlar aşkar olunsa da (**Badalyan et al., 2010, p. 186, 205**), Şorsuda hələlik maldarlıqla bağlı maddi-mədəniyyət nümunələri aşkar olunmamışdır. Ehtimal ki, istehsal təsərrüfatının mövcudluğu şəraitində yığıcılıq da təsərrüfatda əsas rol oynamışdır. Naxçıvan ərazisinin yabanı taxıl növləri (**Абибуллаев, 1982, с. 206; Мустафаев, 1961, с. 56**) və faydalı qazıntılarla (**Бахшалиев, 2005, с.16-30**) zəngin olması da bunu təsdiq edir.

**Yumru Sürümçək yaşayış yeri** Sirab kəndinin şimal-qərbində, Şorsu çayının sahilində yerləşir. Aşkar edilən keramika məmulatı saman qarışığı olan gildən hazırlanaraq qırmızı rəngdə bişirilmiş kasa və küpə tipli qablardan ibarətdir (Şəkil **7**). Keramika məmulatının əksəriyyəti forma verməyən parçalardan ibarətdir.

Eneolit dövrünə aid abidələrdən biri də Güney Ağıl adlanır. **Güney Ağıl yaşayış yeri** Sirab kəndinin yaxınlığında dağ silsiləsinin Naxçıvançay ovalığına doğru uzanan qayalıq çıxıntısı ətrafında yerləşir. Burada çox sayda qayaaltı sığınacaqların olması, şübhəsiz ki, qədim insanların məskunlaşması üçün əlverişli şərait yaratmışdır. Tədqiqat zamanı müəyyən edilmişdir ki, yaşayış yerində mədəni təbəqə olduqca az yığılmışdır. Axtarışlar zamanı müxtəlif dövrlərə, o cümlədən Eneolit dövrünə aid keramika məmulatı aşkar olunmuşdur.

Eneolit dövrünə aid keramika az miqdardadır. Onların hamısı saman qarışıq gildən hazırlanmış, hər iki üzdən hamarlanmışdır. Qabların xarici və daxili səthində saman izləri qalmışdır. Bu tip keramika arxeoloji ədəbiyyatda saman üzlü keramika kimi xarakterizə edilmişdir. Küpə tipli qablar iki nümunə ilə təmsil olunmuşdur. Onların boğazı bir qədər içəri batıq olub, ağzının kənarı xaricə qatlanmışdır. Qablar

saman qarışıq gildən olduqca qaba hazırlanmış, qəhvəyi rəngdə bişirilmişdir. Divarları arasında bişməmiş boz rəngli gil layı qalmışdır (Şəkil **8**, 1, 2).

Kasa tipli qab bir nümunə ilə təmsil olunmuşdur. Bu qab saman qarışıq gildən olduqca qaba hazırlanmış, sarı rəngdə bişirilmişdir. Ağzının kənarı çərtmələrlə, içərisi daraqvarı alətlə naxışlanmışdır. Bu kasa saman qarışıq və saman üzlüdür (Şəkil **11**, 7).

Digər nümunələr forma verməyən parçalardan ibarətdir. Onlar başlıca olaraq qırmızı rəngdə bişirilmişdir (Şəkil **8**, 3-6).

**Çay ağzı yaşayış yeri** Sirab kəndindən şərqdə yerləşir. Yaşayış yeri böyük düzənlik sahəni və quru çay vadisinin yamacını əhatə edir. Saman qarışıq və saman üzlü keramika əsasən abidənin bu hissəsindən aşkar edilmişdir. Bu yamacda daşdan inşa olunan, lakin forması kifayət qədər müəyyən olmayan tikintilər də vardır. Yerüstü materiallar Eneolit dövrünə aiddir. Küpə tipli qablar beş nümunə ilə təmsil olunmuşdur. Onların biri qalındivarlıdır. Saman qarışıq gildən hazırlanmış, qırmızı rəngdə bişirilmişdir. Ağzının kənarı azacıq xaricə qatlanmışdır (Şəkil **10**, 1). İkinci küpə nazik divarlıdır. Onun gilinə incə saman ovuğu qatılmış sarı rəngdə bişirilmişdir. İçəri tərəfində saman izləri qalmışdır. Ağzının kənarı xarıcə qatlanaraq dəyirmiləşdirilmişdir (Şəkil **10**, 2). Digər küpələrin ağzının kənarı xeyli kənara əyilmişdir (Şəkil **11**, 1, 2, 4). Kasa tipli qab konusvari gövdəli, yuvarlaq ağız kənarlıdır. Bu tip kasalar Eneolit dövründə çox geniş yayılmışdır (Şəkil **9**, 4). İkinci kasa saman qarışıq gildən qırmızı rəngdə bişirilmişdir. Digər forma verməyən parçalar da saman qarışıq və saman üzlüdür. Onların hamısı qırmızı rəngdə bişirilmiş, divarları arasında bişməmiş gil layı qalmışdır (Şəkil **10**, 3-6; Şəkil **11**, 1-5). Parçalardan birinin üzərində daraqvari alətin izi qalmışdır (Şəkil **10**, 6). Bu yaşayış yerinin keramikası Eneolit dövrünün erkən mərhələsi üçün xarakterikdir.

**Nuvars yaşayış yeri** Sirab su qaynağının yaxınlığında, dağlarla əhatə olunmuş düzənlik ərazidə yerləşir. Bu yaşayış yerindən yalnız bir ədəd forma verməyən, qırmızı rəngdə bişirilmiş, üzəri daraqvari alətlə naxışlanmış, saman qarışıq və saman üzlü keramıka əldə edilmişdir (Şəkil **11**, 6).

**Qaratəpə yaşayış yeri** Sirab kəndinin cənub-şərqində dağ silsiləsinin kəndə doğru uzanan ətəyində yerləşir. Abidə təbii dərə ilə iki hissəyə ayrılmışdır. Yaşayış yerinin böyük bir qismi müasir məktəbin tikintisi zamanı dağıntıya uğramışdır. Abidənin cənub qurtaracağında su çəni üçün qazılan dərin xəndəkdə mədəni təbəqənin qalınlığı 2 m-ə çatır. Yerüstü tapıntıların az bir qismi Eneolit dövrünə, əksəriyyəti isə Tunc dövrünə aiddir.

Eneolit dövrünə aid keramika məmulatı kasa və küpə tipli qabların parçalarından ibrətdir. Kasa bir nümunə ilə təmsil olunub. Onun gövdəsi qabarıq olub ağzının kənarı içəriyə doğru yastılanmışdır. Gilinin tərkibində incə saman qarışığı vardır. Olduqca qaba hazırlanmış, gövdəsinin yuxarısında üç yuvarlaq deşik açılmışdır. Xarici səthi qara, içərisi isə qırmızı rənglidir (Şəkil **12**, 1). Çəhrayı astarlı qablar Kür-Araz mədəniyyəti üçün xarakterik olsa da, onun digər əlamətləri Eneolit dövrü üçün xarakterikdir. Ehtimal ki, bu qab Eneolitdən Kür-Araz mədəniyyətinə keçidi əks etdirir.

Küpə tipli qabların hamısının ağzının kənarı xaricə qatlanmışdır (Şəkil **12**, 2-5). Qabların rəng tonları sarı ilə qırmızı arasında dəyişməkdədir. Onlar incə saman qarışığı olan gildən hazırlanmışdır. Bəzilərinin ağzının kənarına içəridən qırmızı boya çəkilmişdir (Şəkil **12**, 2-4). Qabların biri qəhvəyi rəngdə bişirilmiş, içərisində və üzərində saman izləri qalmışdır (Şəkil **12**, 3). Küpə tipli qablardan birinin yalnız gövdə hissəsi saxlanmışdır. Onun üzəri qırmızı boya ilə boyanmış, cilasız səthi sürmə ilə naxışlanmışdır (Şəkil **12**, 6). Bu tip rənglə naxışlama Eneolit keramikası üçün xarakterikdir.

**Sürümçək yaşayış yeri** Sirab kəndindən qərbdə, hündür təpənin üzərində yerləşir. Yerüstü arxeoloji materiallar başlıca olaraq Eneolit, Tunc və Dəmir dövrünə aiddir. Eneolit dövrünün keramikası qırmızı, sarı, qəhvəyi, bəzən isə qara rəngdə bişirilmişdir. Onların bir qismi saman qarışıq və saman üzlüdür. Küpə tipli qablar xarıcə qatlanmış ağız kənarlı və qabarıq gövdəlidir. Onlardan birininin divarları nazik olub ağzının kənarı qıfşəkilli, gövdəsi yuvarlaqdır (Şəkil 14, 1). İkinci küpə incə qum qarışıq gildən hazırlanmış, sarı rəngdə bişirilmişdir. Bəzi yerlərində saman izlərinə rastlanır (Şəkil 14, 2). Üçüncü küpə iri qum qatılmış gildən hazırlanmış, içərisində və xarici səthində qaba daraq izləri saxlanmışdır (Şəkil 14, 3). Küpələrin ikisi qum qarışıq gildən hazırlanaraq qəhvəyi rəngdə bişirilmişdir (Şəkil 13, 1, 5). Onlardan birinin ağzının kənarında qırmızı rəng izləri vardır (Şəkil 15, 5). Qəhvəyi-qara rəngli üçüncü küpə incə saman qarışıq gildən hazırlanmışdır. Onun ağzının altında batıq vardır (Şəkil 15, 2). Hər iki tərəfi saman üzlüdür. Küpələrin biri narın qum qarışığından hazırlanmış, xarici səthinə və ağzının içərisinə qırmızı rəng çəkilmişdir (Şəkil 15, 4). Çölmək tipli qab qum qarışıq gildən hazırlanmışdır. İçəridən boz, xaricdən qara rənglidir. Gövdəsi iki cərgə ziqzaqşəkilli xətlərlə naxışlanmışdır (Şəkil 15, 3).

Yaşayış yerindən aikar olunan keramika məmulatının bir qismi boyalıdır. Onlardan biri küpə tipli qaba aiddir. Onun tərkibinə incə saman qatılmış, xarici səthinə və ağzının içərisinə qırmızı rəng çəkilmişdir. Küpənin ağzının kənarı qara rənglə enli

xətlərlə naxışlanmışdır (Şəkil 16, 5). Saman qatqılı, iri küpə parçalarından birinin üzəri qırmızı boya üzərindən qara rəngli enli xətlərlə naxışlanmışdır (Şəkil 14, 4). Digər küpə parçasının sarı rəngli saxsısı üzərində qara boya izləri saxlanmışdır (Şəkil 14, 5).

Eneolit dövrünə aid qabların bir qrupu kasalarla təmsil olunmuşdur. Onların biri incə saman qatqılı gildən hazırlanmışdır. Ağzının kənarı xaricə qatlanan kasanın gövdəsi qabarıqdır. Xarici səthi boya çəkilmədən cilalanmış və qəhvəyi rəngli enli xətlərlə naxışlanmışdır. Kasanın ağzının kənarına içəridən qırmızı boya çəkilmişdir. İçərisində incə daraqşəkilli alətin izləri saxlanmışdır (Şəkil 16, 1). İkinci kasanın ağzının kənarı azacıq xaricə qatlanmış, gövdəsi qabarıqdır. Saman qarışıq gildən hazırlanmış, keramikanın qırmızı saxsısı üzərinə çəkilmiş qara rəngli xətlə naxışlanmışdır. Ağzının kənarında qırmızı boya izləri vardır. Gövdəsinin iç tərəfində incə daraqvari alətin izləri saxlanmışdır (Şəkil 16, 2). Üçüncü kasa ikinci ilə eyni tiplidir. Onun qabarıq gövdəsi qəhvəyi rənglə çəkilmiş iki paralel xətlə naxışlanmışdır (Şəkil 16, 3). İçəri tərəfində incə daraq izləri saxlanmışdır. Dördüncü kasanın ağzının kənarı xaricə qatlanaraq dəyirmiləşdirilmişdir. Onun gövdəsi hər iki tərəfdən qəhvəyi rəngli anqobla örtülmüş, ağzının kənarı qara rənglə damlaşəkilli ornamentlə naxışlanmışdır (Şəkil 16, 4). İçəri tərəfində daraqvari alətin izləri saxlanmışdır.

Sürümçəkdən aşkar olunan, ağzının kənarı xeyli geriyə qatlanan küpələrin (Şəkil 16, 1) bənzərləri Böyük Kəsikdə (**Müseibli 2007, tabl. XVIII, 1-3, 6**), Xələcdə (**Seyidov, Baxşəliyev 2010, şəkil 8, 3**), Ovçular Təpəsində (**Marro, Bakhchaliyev, Ashurov 2009, pl. XIV, 2**), Göytəpədə (**Brown 1951, fig. 6, 459**) rastlanmışdır. Bu abidədən aşkar olunan digər küpələrin də bənzərləri Cənubi Qafqaz və Yaxın Şərq abidələrindən məlumdur. Çölmək tipli qabların biri içəridən sarı, xaricdən qara rəngli olub ziqzaqşəkilli ornamentlə naxışlanmışdır. Onun bənzərləri Eneolit abidələrindən bizə bəlli deyil.

Sürümçəkdən aşkar olunan keramika məmulatının bir qismi, xüsusilə kasa tipli qablar boya bəzəməlidir. Naxışlar qara, yaxud qəhvəyi rənglə qabların saxsısı üzərinə, bəzən isə cilasız qırmızı boya üzərindən çəkilmişdir. Ağzının kənarı xaricə qatlanan qabarıq gövdəli bu tip kasaların bənzərləri Mərənd Kültəpəsindən (**Kroll 1990, abb. 3, 4; abb. 5, 17**), Norşuntəpədən (**Gülçur 1988, taf. 65, 3**) və digər abidələrdən məlumdur. Kasalardan birinin bəzəmə motivi Norşuntəpə (**Gülçur 1988, taf. 66, 2**), Mərənd Kültəpəsi (**Kroll 1990, abb. 2, 1-2**) və Şortəpədən aşkar olunan nümunələrlə bənzərdir. Lakin bu kasanın bəzəmə motivi Mil düzü abidələrində daha geniş yayılmışdır. Ararat vadisində bu motivə rastlanmaması və əksinə Mil düzündə və

Naxçıvanda onun yayılması onların mənşəcə Şimal-Qərbi İranla (İran Azərərbaycanı) bağlı olduğunu göstərir. Digər kasaların da bəzəmə motivinə Norşuntəpə, Mərənd Kültəpəsi və Mil düzü abidələrində rastlanır. Kasalardan birinin ağzının içəri tərəfi (Şəkil 16, 4) damla şəkilli ornamentlə naxışlanmışdır. Bu tip ornamentə Ovçular Təpəsində (**Marro, Bakhchaliyev, Ashurov 2009, pl. XIX, 2**), Göytəpədə (**Brown 1951, p. 22, fig. 5**) və Norşuntəpədə (**Gülçur 1988, taf. 66; taf. 67**) rastlanmışdır. Sürümçəkdən tapılan boyalı qablardan biri küpə tiplidir (Şəkil 16, 5). Onun ağzının kənarı qımızı boya üzərindən qara rənglə naxışlanmışdır. Eneolit dövrünə aid boyalı keramika məmulatına Qurddağ yaşayış yerində də rastlanmışdır. Boya küpə tipli qablardan birinin ağzının içəri tərəfinə qara rənglə çəkilmişdir. Ağzının kənarı xarıcə qatlanmış saman üzlü küpələrin bənzərlərinə Böyük Kəsik (**Müseibli 2007, tabl. XVIII, 1-3, 6**), Xələc (**Seyidov, Baxşəliyev 2010, şəkil 8, 3**) və digər abidələrdə rastlanmışdır. Boyalı keramika məmulatına Qahabçay hövzəsində də rast gəlinir. Boya birbaşa qabların saxsısı üzərində açıq qara rənglə çəkilmişdir. Forma baxımından onlar Sirab ətrafında aşkar olunan digər abidələrin materialları ilə bənzərdir.

Tədqiqatlar zamanı 2011--2013cü illərdə Sirab ətrafında daha bir neçə abidə qeydə alınmışdır. Yeni tapıntılar bu ərazinin Eneolit dövründə sıx məskunlaşdığını göstərməklə bərabər Azərbaycan arxeologiyasının bu dövrə aid problemlərini yenidən nəzərdən keçirməyə imkan verir.

Yeni aşkar edilmiş abidələrdən biri **Uçan Ağıl** yaşayış yeridir. Yaşayış yeri Sirab kəndindən şimal-şərqdə yerləşir. Abidə qərbdən Sirab çayının axdığı, şərqdən isə yaşayış yerini əhatə edən dərin dərənin qovşağında yerləşir. Abidə təbii təpənin üzərindədir. Təpənin Sirab çayına doğru uzanan yamacında mis filizinin minerallarına rastlanır. Yaşayış yerində aparılan araşdırmalar zamanı xeyli keramika məmulatı aşkar edilmişdir. Onların əksəriyyəti sarı və qırmızı rəngdə bəzən isə boz rəngdə bişirilmişdir. Yaşayış yerindən aşkar edilən keramika kasa və küpə tipli qabların parçalarından ibarətdir. Keramika məmulatının bir qismi saman qarışıq gildən olduqca kobud hazırlanmışdır. Onların biri kasa tipli qabın parçası ilə təmsil olunmuşdur (Şəkil 17, 1). O, qabarıq formalı olub, ağzının kənarı bir qədər içəri qatlanmışdır. Gilinə saman qatılmış, olduqca kobud hazırlanmış və qırmızı rəngdə bişirilmişdir. Bu tip qabların biri qabarıq kəmər üzərindən oval batıqlarla naxışlanmışdır (Şəkil 19, 3). Bəzi qablar silindrik gövdəlidir (Şəkil 19, 7).

Kasa tipli qablar formaca müxtəlifdir. Onların ikisi qum qarışıq gildən hazırlanaraq boz rəngdə bişirilmiş, hər iki üzdən yaxşı hamarlanmışdır (Şəkil 17, 3;

Şəkil 18, 2). Qırmızı rəngdə bişirilən kasaların birinci tipi qabarıq gövdəlidir. Bu tip kasalar ağzının formasına görə bir-birindən fərqlənirlər. Kasalardan birinin ağızının kənarı dikdir (Şəkil 17, 2). İkinci kasanın ağzının kənarı azacıq xaricə qatlanmış (Şəkil 17, 4), digərinin isə ağzının altı batıq zolaqla əhatə edilmişdir (Şəkil 19, 1).Onların gilinə incə saman qatılmış, sarı rəngdə bişirilmiş, hər iki üzdən hamarlanmışdır. İkinci tip kasaların gövdəsi konusvaridir (Şəkil 18, 1, 3; Şəkil 19, 2, 8). Bu kasalar ağzının və gövdəsinin formasına görə bir-birindən fərqlənirlər. Onlardan birinin ağzının kənarı bir qədər içəri qatlanmışdır (Şəkil 19, 2). Bu kasanın xarici səthi cilalıdır. Kasaların ikisinin xarici səthi olduqca kobuddur (Şəkil 18, 1; Şəkil 19, 7). Bu tip kasaların biri qırmızı rəngdə bişirilmiş, xaricdən yaxşı cilalanmışdır (Şəkil 18, 3). Üçüncü tip kasalar silindrik-konusvari gövdəlidir (Şəkil 19, 6, 9).

Kasa tipli qabların ikisi boyalıdır. Onların biri qalındivarlıdır. Ağzının kənarı saxlanmamışdır. Gilinə saman qatılmış, qırmızı rəngdə bişirilmişdir. Qabın içərisi qırmızı rəng üzərinə qara rənglə çəkilmiş birləşik üçbucaqlarla naxışlanmışdır (Şəkil 18, 4). İkinci kasa qum qarışıq gildən hazırlanaraq qırmızı rəngdə bişirilmişdir. Kasanın xarici səthi qırmızı rəng üzərinə qara rənglə çəkilmiş xətlərlə naxışlanmışdır (Şəkil 18, 5).

Küpə tipli qablar silindirik boğazlıdır (Şəkil 19, 5, 10). Onlar saman qarışıq gildən hazırlanaraq qırmızı rəngdə yaxşı bişirilmişdir. Birinin ağzının kənarı xaricə qatlanmışdır.

Uçan Ağıl yaşayış yerindən götürülən kömürün analizi e.ə.4497-4452-ci illəri göstərmişdir.

**Sərin Bulaq** yaşayış yeri Sirab kəndinin şimalında, dağ çayının sağ sahilində yerləşir. Yaşayış yeri çay vadisinə doğru uzanan təpənin üzərindədir. Dərin dərələrlə hüdudlanan yaşayış yerinin cənubundan dağ çayı axır. Arxeoloji axtarışlar zamanı yaşayış yerindən aşkar olunan keramika küpə, çölmək və kasaların parçalarından ibarətdir. Silindrik və konusvari boğazlı küpələrin ağzının kənarı xaricə qatlanmışdır (Şəkil 20,1-3, 6-8, 9, 10, 12). Onlar saman qarışıq gildən hazırlanmış, sarı, ya da qırmızı rəngdə bişirilmişdir. Küpələrin biri boz rəngli və çəhrayı astarlıdır. Qum qarışıq gildən hazırlanmışdır (Şəkil 20, 3). Küpələrdən birinin ağzının kənarı relsşəkillidir (Şəkil 20, 5).

Çölməklər qabarıq gövdəlidir. Onların ağzının kənarı yana qatlanmışdır. Bu tip qablar saman qarışıq gildən hazırlanaraq qırmızı rəngdə bişirilmişdir (Şəkil 20, 4, 11).

Kasalar qabarıq formalıdır. Bu tip qablar gövdəsinin formasına görə bir-birindən fərqlənirlər. Onlar saman qarışıq gildən hazırlanaraq qırmızı, bəzən isə sarı rəngdə bişirilmişdir. Birinci tip kasaların ağzının kənarı xaricə qatlanaraq dəyirmiləşdirilmişdir (Şəkil 21, 1). Gövdəsində iki oval deşik açılmışdır. Bu kasanın içərisi hislənmişdir. Bu tip kasaların biri qum qarışıq gildən hazırlanmışdır (Şəkil 22, 2). İkinci tip kasanın ağzının kənarı azcıq içəri qatlanmışdır. Sarı rəngdə bişirilmişdir. Gövdəsində iki yuvarlaq deşik açılmışdır (Şəkil 21, 2). Üçüncü tip kasanın gövdəsi konusvari, ağzının kənarı düzdür. Ağzı bir qədər içəri əyilmişdir. Gövdəsində dörd yuvarlaq deşik açılmışdır (Şəkil 21, 3). Dördüncü tip kasanın gövdəsi konusvari olub, ağzının altı enli batıq zolaqla əhatələnmişdir (Şəkil 21, 4). Beşinci tip kasa konusvari gövdəlidir. Ağzının kənarı bir qədər xaricə qatlanmışdır (Şəkil 21, 5). Bu kasa qum qarışıq gildən hazırlanaraq sarı rəngdə bişirilmişdir. Xarici səthi cilalıdır. Altıncı tip kasa qabarıq konusvari gövdəli olub, ağız hissədə bir qədər içəri yığılmışdır (Şəkil 22, 1). Keramika parçalarından birinin üzərində Eneolit dövrü üçün xarakterik olan halqaşəkilli qulp vardır.

**Taxçalı yaşayış yeri** 2010-cu ildə qeydə alınmışdır. Bu yaşayış yerində aparılan araşdırmalar zamanı yeni keramika məmulatı aşkar olunmuşdur. Qablar saman qarışıq gildən hazırlanaraq qırmızı rəngdə bişirilmişdir (Şəkil 23). Küpələr formaca üç tipə bölünür. Birinci tip küpələr silindrik (Şəkil 23, 1, 8, 10), ikincilər isə konusvari boğazlıdır (Şəkil 23, 6, 9). Üçüncü tip küpələrin ağzının kənarı xaricə qatlanmışdır. Onların bəzisi boğazsız (Şəkil 23, 2), bəziləri isə qısa boğazlıdır (Şəkil 23, 7). Kasalar formaca iki tipdir. Birinci tip kasaların gövdəsi silindrik-konusvari (Şəkil 23, 3), ikincilərinki isə konusvaridir (Şəkil 23, 11). Onun ağzının kənarı işəriyə doğru qatlanmışdır. Qapaq bir nümunə ilə təmsil olunmuşdur. Saman qarışıq gildən qırmızı rəngdə bişirilmişdir (Şəkil 23, 4). Qalındivarlı təsərrüfat küpünə aid bir keramika parçası saman qarışıq gildən qırmızı rəngdə bişirilmişdir. Onun gövdəsi qabarıq zolaq üzərindən oval batıqlarla naxışlanmışdır (Şəkil 23, 5).

**II Naxışnərgiz yaşayış** yeri Sirab kəndi yaxınlığında yerləşir. Tədqiqat zamanı abidənin ərazisində iki kurqana rastlanmışdır. Kurqanlar daş və torpaq qarışığından ibarətdir. Yaşayış yeri araşdırılarkən Orta əsrlərə və Eneolit dövrünə aid keramika nümunələri aşkar olunmuşdur. Eneolit keramikası qum, bəzən isə saman qarışıq gildən hazırlanaraq sarı rəngdə bişirilmişdir. Küpə tipli qablar qısa boğazlıdır. Onların ağzının kənarı xaricə qatlanmış, xarici səthi yaxşı hamarlanmışdır (Şəkil 24, 1, 4-9). Bəzi qabların gövdəsi məməcikşəkilli çıxıntılarla naxışlanmışdır (Şəkil 24, 2). Qabların biri silindrik gövdəlidir (Şəkil 24, 3).

Orta əsr keramikasının bir qismi şirli, bir qismi isə şirsizdir.

Kənd yeri yaşayış yeri Sirab kəndindən cənub-qərbdə yerləşir. Yaşayış yerinin mərkəzi hissəsi oval təpə şəklindədir. Abidə şimal-qərbdə dərin dərə ilə hüdudlanmışdır. Araşdırma zamanı yaşayış yerindən Eneolit dövrünə və Orta əsrlərə aid keramika məmulatı aşkar olunmuşdur.

Eneolit dövrünə aid keramika qum, bəzən isə saman qarışıq gildən hazırlanaraq qırmızı rəngdə bişirilmişdir. Keramika məmulatının əksəriyyəti forma verməyən parçalardan ibarədir. Küpə tipli qablar iki nümunə ilə təmsil olunmuşdur. Onların ağzının kənarı xaricə qatlanaraq dəyirmiləşdirilmişdir.

**Məsməli Ağıl** yeri Naxışnərgizdən şərqdə yerləşir. Abidə dağın ətəyini əhatə edən düzənlik sahədə olub, hər tərəfdən dərin dərələrlə hüdudlanmışdır. Keramika məmulatına az rastlanmışdır. Onlar başlıca olaraq Orta Tunc dövrünə aid gil qabların parçalarından ibarətdir. Qabların üzəri qırmızı anqobla örtülərək qara, yaxud qəhvəyi rənglə naxışlanmışdır.

Uçan Ağıl yaşayış yerindən aşkar edilən qalındivarlı kobud hazırlanmış kasaların (Şəkil 17, 1; Şəkil 19, 9) bənzərlərinə I Kültəpənin "1a" tbəqəsində rastlanır (**Həbibullayev 1959, tablo 20, 1, 2** ). Silindrik gövdəli kobud hazırlanmış qabların da (Şəkil 19, 7) bənzərləri I Kültəpənin bu təbəqəsindən məlumdur (**Həbibullayev 1959, tablo 24, 3**). Konusvari formalı ağzının kənarı içəri yığılmış kasalar (Şəkil 18, 2; Şəkil 19, 2; Şəkil 22, 1) Eneolit dövrünün müxtəlif mərhələlərindən məlumdur. Lakin bu tip kasalara Eneolit dövrünün son mərhələsində daha çox rastlanır. Bu tip kasalar Ovçulartəpəsindən (**Baxşəliyev, Marro, Aşurov 2010, tablo XXXIV, 1-2, 4-5; tablo XXXV, 2-5; tablo XXXVI, 1**), Leylatəpədən (**Akhundov 2007, figur 13, 6**) və Böyük Kəsikdən (**Müseibli 2007, figur 18-23; 9, tablo I, 2-5**) aşkar olunan kasalarla bənzərdir. Digər kasaların bənzərləri (Şəkil 18, 3) Ovçulartəpəsindən (**Baxşəliyev, Marro, Aşurov 2010, tablo XLI, 2**) və Böyük Kəsikdən (**Müseibli 2007, tablo XVII, 6**), Uçan Ağıldan tapılan silindrik konusvari (Şəkil 19, 6) kasaların bənzərləri Böyük Kəsikdən (**Müseibli 2007, tablo 1, 1**) məlumdur. Taxçalıdan aşkar edilən ağzının kənarı içəri çıxıntılı kasaların bənzərləri Leylatəpədən (**Akhundov 2007, figur 13, 8**), ağzının altı enli zolaqla əhatələnən kasaların bənzərləri isə Leylatəpə (**Akhundov 2007, figur 14, 10**) və Böyük Kəsikdən (**Müseibli 2007, tablo XVI, 11**) aşkar olunmuşdur. Sərin Bulaqdan aşkar edilən (Şəkil 21, 5) ağzının kənarı üçbucaq şəklində xaricə çıxıntılı olan kasanın bənzəri Böyük Kəsikdən (**Müseibli 2007, tablo III, 10**) məlumdur. Küpələr ağzının və boğazının formasına görə fərqlərirlər. Oların bir qismi silindirik boğazlıdır

(Şəkil 20, 3, 10-11). Onların biri çəhrayı astarlıdır(Şəkil 20, 3). Bəzi tədqiqatçılar bu tip qabları Eneolit dövrünün sonu və "Proto-Kür-Araz" keramikası üçün xarakterik hesab edirlər. Lakin qeyd etmək lazımdır ki, silindrik boğazlı küpə tipli qablar I Kültəpənin erkən Eneolit təbəqəsindən də məlumdur.

Sərin Bulaq yaşayış yerindən aşkar olunan gövdəsində yuvarlaq deşiklər açılan kasalar xüsusilə diqqətəlayiqdir. Üç nümunə ilə təmsil olunan bu kasalar müxtəlif tiplidir (Şəkil 21, 1-3). Bu motivdə bəzəmə Zirincli (**Baxşəliyev, Novruzov 2010, foto 3**), Şorsu (**Baxşəliyev, Novruzov 2010, foto 6**), Böyük Kəsik (**Müseyibli 2007, tabl. XXIII, 1-9**), Keçilidə (**Нариманов 1987, рис. 35, 1, 11**), Cənubi Qafqaz abidələrində (**Кушнарева, Чубинишвили 1970, c. 42, рис. 15**), Şərqi Anadoluda Aştəpə (**Marro and Özfirat 2005, pl. III, 3** ), Norşuntəpə (**Gülçur 1988, tabl. 39, 10**) və digər abidələrdə rastlanmışdır. Bu tip keramikanın ilк nümunələri Şərqi Anadolunun Neolit yaşayış yerlərindən məlumdur. Gövdəsində deşik açılan keramikanın qədim nümunələri həmçinin I Kültəpənin "1a" təbəqəsində rastlanmışdır (**Həbibullayev 1959, s. 59, tablo 19, 3**). Bu tip deşiкli кeramiкanın arxeoloji ədəbiyyyatda «Sioni кeramiкası» adlandırılması və Son Eneolit yaşayış yerlərinin buna uyğun olaraq «*Late Sioni Ware site*» adlandırılması (**Kiguradze 2000, s. 321-325**) fiкrimizə görə düzgün olmamış və arxeoloji mədəniyyətlərin dəyərləndirilməsində yanlışlığa səbəb olmuşdur. Halbuкi, qum qarışıq və cilalı «Sioni кeramiкası»na Qafqazın cənub bölgələrində olduqca az rastlanır. Sirab ətrafında aşkar olunan кeramiкa qara rəngli qum qarışıq Sioni mallarından başlıca olaraq saman qarışıq olması, sarı ya da qırmızı rəngdə bişirilməsi ilə fərqlənir. Odur ki, bu tip keramikanın yerli istehsal ənənələrinin davamı olduğunu söyləmək olar.

Uçan Ağıl yaşayış yerində Ubeyd tipli boyalı keramikaya da rastlanmışdır. Onlar kasa tipli qabların parçalarıdır. Qabların biri içəridən digəri isə xaricdən qəhvəyi rənglə çəkilmiş xətlərlə naxışlanmışdır. Qabların biri paralel xətlər arasına alınmış bitişik ştrixlənmiş üçbucaqlarla naxışlanmışdır (Şəkil 18, 4). Bu qab saman qarışıq gildən hazırlanmışdır. Bu motivlər müəyyən dəyişikliklərlə Orta Tunc dövründə də istifadə edilmişdir.

Ubeyd mədəniyyətinin təsirinə Naxçıvan ərazisində 2011-ci ildə aparılan araşdırmalar zamanı Ovçulartəpəsində də rastlanmışdır. Ovçulartəpəsindən aşkar edilən keramika parçası qırmızı rənglə naxışlanmışdır. Naxışlar birbaşa qabın boyanmamış səthinə çəkilmişdir. Onlar şaquli xətlər arasına alınmış düz xətlər və birləşik üç-

bucaqlardan ibarətdir. Araşdırmalar bu keramika parçasının idxal edilmiş gil qaba aid olduğunu göstərir.

Arxeoloji tədqiqatların nəticələrinə əsasən demək olar ki, yeni yaşayış yerlərində Eneolit dövrünün müxtəlif mərhələlərində yaşayış olmuşdur. Lakin Son Eneolit dövrü keramikası üstünlük təşkil edir. Araşdırmalar göstərir ki, İkiçayarası tayfalarının Naxçıvanla iqtisadi-mədəni əlaqələrini gücləndirən əsas faktorlardan biri bu ərazinin təbii sərvətləri, xüsusilə mis yataqları olmuşdur. Sirab ətrafında qeydə alınan yaşayış yerlərində mis filizinin minerallarına rastlanması bunu təsdiq edir.

Son Eneolit keramikası ilə Orta Tunc dövrü keramikasının bənzərliyi Eneolit mədəniyyətinin Naxçıvan ərazisində müəyyən müddət davam etdiyini və bu mədəniyyətin sonradan Orta Tunc dövrü mədəniyyətinin əsasını təşkil etdiyini göstərir.

**Yeni yol yaşayış yeri** Babək rayonunun Məmmədrza kəndinin cənubunda I Kültəpə və II Kültəpə yaşayış yerlərinin arasında yerləşir. Yaşayış yeri Sirabçayın sol sahilində, Sirabçayla Naxçıvançayın qovşağında yerləşir. 2013-cü ildə aparılan araşdırmalar zamanı yaşayış yerindən Eneolit dövrünə aid az miqdarda keramika məmulatı toplanmışdı. 2014-cü ildə yaşayış yerində mədəni təbəqənin varlığını müəyyən etmək üçün 2x2 m ölçüdə qazıntı aparıldı. Tədqiqatın məqsədi yaşayış yerində mədəni təbəqənin varlığını yoxlamaq idi. Tədqiqat 1, 5 m dərinliyədək, xam torpağa çatanadək davam etdirildi. Mədəni təbəqənin qalınlığı təqribən 1 m-dir. Tədqiqat zamanı 6 təbəqə, o cümlədən iki tikinti qatı aşkar olunmuşdur. Tikintilər çiy kərpicdən inşa olunmuşdur. Lakin qazıntı sahəsi kiçik olduğundan tikintilərin planını tam izləmək mümkün olmamışdır. Tikinti qatları qalın kül layları ilə bir-birindən ayrılmışdır. Tapıntılar keramika, heyvan sümükləri, obsidian parçaları və ağac kömürünün qalıqlarından ibarətdir. Tədqiqat zamanı aşkar olunan keramika məmulatı Eneolit dövrünün sonu üçün xarakterikdir. Keramika, sarı, boz və qırmızı rəngdə bişirilmişdir. Bəzi qabların üzəri qalın his qatı ilə örtülmüşdür. Keramika məmulatının müəyyən hissəsi xaricdən cilalıdır. Onlar başlıca olaraq əldə, olduqca qaba hazırlanmışdır. Xarici divarları hamar deyil. Bitki qarışığı olan gildən hazırlanaraq sarı rəngdə bişirilən keramika məmulatı olduqca kövrəkdir. Onlardan birinin üzərində boya bəzəməyə rast gəlinir.

Yeni yol yaşayış yeri strateji cəhətdən olduqca əlverişli mövqedə yerləşməsi, fikrimizcə, onu kommunikasiya xətlərinin düyün nöqtəsinə çevirmişdir. Naxçıvançay vadisində məskunlaşan qədim insanlar Sirabçay və onun qolları boyunca ətraf ərazilərə yayılaraq ətraf aləmlə əlaqə yaratmışlar.

Arxeoloji materialların əksəriyyətini təşkil edən keramika məmulatının laylar üzrə xarakterizə etməyi məqsədəuyğun hesab edirik. Birinci lay kül qarışıq torpaqdan ibarət idi. Bu təbəqədə keramika məmulatı az idi. Ağzının kənarı geriyə qatlanmış küpə tipli qab qum qarışıq gildən hazırlanaraq qırmızı rəngdə bişirilmişdi (Şəkil 25, 1). Kasa tipli qab qum qarışıq gildən hazırlanmışdı. İçəridən boz, xaricdən çəhrayı rəngdə idi. Xarici səthi cilalanmışdı. Gövdəsi qabarıq olub, ağız hissədə bir qədər içəri yığılmışdı (Şəkil 25, 2). İri həcmli məcməyi tipli qab qum qarışıq gildən çəhrayı rəngdə bişirilmişdi. Üzəri hislənmişdi. Ağzının kənarında horizontal qulpun qalığı qalmışdı (Şəkil 25, 3).

İkinci lay qırmızı və boz rəngli kül laylarından ibarət idi. Bu laydan aşkar olunan keramika üç nümunə ilə təmsil olunub. Dar boğazlı kiçik həcmli küpə tipli qab qum qarışıq gildən qırmızı rəngdə yaxşı bişirilmişdi (Şəkil 25, 4). İkinci küpə qalındivarlı idi. Saman qarışıq gildən hazırlanaraq qırmızı rəngdə yaxşı bişirilmişdi. Divarları arasında qara rəngli lay var idi. Xarici səthi cilalanmışdı (Şəkil 25, 5). Çölmək tipli qab saman qarışıq gildən hazırlanaraq sarı rəngdə bişirilmişdir. Ağzının kənarı xaricə doğru əyilmişdir. Xarici səthi cilalıdır (Şəkil 25, 6).

Üçüncü lay kərpic və kül qalıqlarından ibarət idi. Küpə tipli qab saman qarışıq gildən hazırlanaraq çəhrayı rəngdə yaxşı bişirilmiş, divarları arasında boz təbəqə qalmışdı (Şəkil 26, 2). Kasa tipli qablar formaca fərqlidir. Onların biri saman qarışıq gildən hazırlanaraq sarı rəngdə bişirilmişdir. Gövdəsi qabarıq, oturacağı yastıdır. Ağzının kənarı xaricə qatlanmışdır (Şəkil 26, 1). Xarici səthi hamarlanmışdır. İkinci kasa bikonik gövdəlidir. Ağzının kənarı qırılmışdır. Saman qarışıq gildən hazırlanaraq hazırlanaraq yaxşı bişirilmişdir. Divarları arasında lay yoxdur (Şəkil 26, 3). Forma verməyən digər keramika nümunələri saman qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir (Şəkil 26, 4-5). Onlardan birinin üzərində horizontal çıxıntının izləri qalmışdır (Şəkil 26, 4).

Dördüncü lay boz rəngli kül qalıqlarından ibarət idi. Bu laydan aşkar olunan keramika başlıca olaraq saman qarışığı olan gildən hazırlanmışdı. Məcməyi tipli qab sarı rəngdə yaxşı bişirilmişdi. Lakin gili olduqca kövrək idi. Divarları arasında təbəqə yox idi (Şəkil 27, 1). Gövdəsi qabarıq olub ağız hissədə bir qədər içəri yığılmışdı. Kasa tipli qabların biri qabarıq gövdəlidir. Ağzının kənarı xaricə qatlanmışdır. Gili sarı rənglidir. Divarları arasında təbəqə yoxdur (Şəkil 27, 2). Xarici səthi hamarlanmışdır. İkinci kasa silindrik-konusvari formalıdır. Həm qum, həm də saman qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir (Şəkil 27, 3). Çölmək tipli qab saman qarışığı

olan gildən hazırlanaraq qırmızı rəngdə bişirilmişdir. Divarları arasında boz lay var. Xarici səthi cilalıdır (Şəkil 28, 1).

Beşinci lay kül qarışıq çəhrayı rəngli təbəqədən ibarət idi. Bu laydan aşkar olunan keramika nümunələri başlıca olaraq çölmək tipli qabların parçalarından ibarətdir. Şölməklərin biri narın saman və qum qarışığından hazırlanaraq qırmızı rəngdə yaxşı bişirilmişdir. Xarici səthi yüngülcə cilalanmışdır (Şəkil 28, 2). Xarici səthinin bəzi yerlərində boz ləkələr qalmışdır. İkinci tip çölməklər qum qarışığı olan gildən hazırlanaraq qırmızı rəngdə bişirilmişdir ( Şəkil 28, 3; Şəkil 29, 2). Qabların xarici səthi yaxşı hamarlanmışdır. Qablardan birinin üzərində qabarıq yapma bəzək vardır (Şəkil 28, 4). Qablardan birinin yalnız oturacaq hissəsi salamat qalmışdır. Saman qarışıq gildən hazırlanan bu nümunə qırmızı rəngdə bişirilmiş, xarici səthi hislənmişdir. Oturacağı halqadabanlı olub bir qədər içəriyə doğru batıqdır (Şəkil 29, 1).

Altıncı lay kül və kərpic qalıqlarından ibarət idi. Bu laydan aşkar olunan küpə saman və qum qarışığı olan gildən hazırlanaraq qırmızı rəngdə bişirilmişdi. Xarici səthi hamarlanmış və hislənmişdi (Şəkil 30, 1). Çölmək tipli qab saman və qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdi. Xarici səthi nahamar idi. Divarları arasında təbəqə yox idi (Şəkil 29, 5). Kasa tipli qab qabarıq gövdəli idi. Saman qarışıq gildən hazırlanaraq çəhrayı rəngdə bişirilmiş, səthində sarı ləkələr, divarları arasında bişməmiş lay saxlanmışdı (Şəkil 29, 4). Qabın oturacaq hissəsinə aid parça saman qarışıq gildən hazırlanaraq sarı rəngdə bişirilmişdi. Kəsiyində bişməmiş boz lay var idi (Şəkil 29, 3).

Yeddinci lay boz rəngli kül və kərpic qarışıq təbəqədən ibarət idi. Keramika məmulatı arasında çölmək tipli qablar üstünlük təşkil edirdi. Onlardan biri qısa boğazlı və şarğövdəlidir. Saman və qum qarışığı olan gildən hazırlanaraq çəhrayı rəngdə bişirilmiş, xarici səthi cilalanmışdır (Şəkil 30, 2). Ağzının kənarı xaricə qatlanmış, uzunsov gövdəli çölməklər qum qarışıq gildən hazırlanaraq qırmızı rəngdə yaxşı bişirilmişdir. Onların xarici səthi yüngülcə cilalanmışdır (Şəkil 30, 4-5). Digər çölməklər saman qarışıq gildən hazırlanmış, çəhrayı rəngdə yaxşı bişirilmişdir (Şəkil 31, 2-3 ). Kasalar formaca müxtəlifdir. Onların bir konusvari formalıdır. Saman qarışıq gildən hazırlanaraq sarı rəngdə bişirilmiş, xaricdən cilalanmışdır (Şəkil 30, 3). İkinci kasa silindrik-konusvari formadadır. Qum qarışıq gildən hazırlanaraq qırmızı rəngdə bişirilmişdir (Şəkil 31, 4). Keramika nümunələrindən biri boyalıdır. Boya birbaşa qabın saxsısı üzərinə qırmızı və qara rənglə çəkilmişdir (Şəkil 31, 1). Forma verməyən keramika parçalarının birində silindrik deşik açılmışdır. Qeyd edək ki, bu yeganə nümunədir (Şəkil 31, 5)

Yaşayış yerində mədəni təbəqənin xarakterinin müəyyən etmək üçün 2014-cü ilin avqustunda 300 kv m sahədə araşdırma aparıldı.

Yaşayış yerinin ərazisi kənd əhalisi tərəfindən əkin sahəsinə çevrildiyindən traktorla sürülmüş və ot basmış halda idi. Sahəni təmizləyib qazıntı üçün yararlı hala salmaq xeyli vaxt apardı.

Birinci kvadratda aparılan araşdırma zamanı beş tikinti qatının olduğu müəyyən olundu. Üstdən birinci tikinti qatında dördkünc formalı beş otağın qalığı aşkar olundu. Onlardan biri qazıntının cənub hissəsində yerləşirdi. Onun qazıntı sahəsində olan hissəsinin eni 1, 8 m, uzunu 4, 2 m idi. Otağın cənub hissəsində diametri 60 sm olan ocaq var idi. Tədqiqat zamanı bu otağın içərisindən Son Eneolit dövrünə aid keramika nümunələri aşkar olunmuşdur.

İkinci otağın qalıqları qazıntı sahəsinin şimal hissəsində aşkar olundu. Bu otağın divarları eroziya nəticəsində dağılmışdı. Onun uzunu 2, 1 m, eni 1, 8 m idi. Bu otağın içərisindən Eneolit dövrünə aid keramika nümunələri aşkar olunmuşdur. Otağın içərisində isə ocaq qalığı aşkar olunmamışdır.

Üçüncü otaq birinci ilə ikincinin arasında yerləşirdi. Onun yalnız iki divarını müəyyən etmək mümkün oldu. Otağın uzunu 4, 8 m, eni 4, 6 m idi. Onun ön tərəfində diametri 1, 2 m olan dairəvi formalı ocaq aşkar olunmuşdu. Onun içərisində keramika nümunələri və heyvan sümükləri aşkar olundu. Ehtimal ki, bu otaqdan ümumi yaşayış sahəsi kimi istifadə olunmuşdur.

Dördüncü otaq üçüncü və birinci ilə birləşik idi. Onun ölçüləri 2,30x340 m idi. Otağın yalnız bir qismi salamat qalmışdı. Onun içərisində oval formalı iki ocaq aşkar olundu Onların ölçüsü təqribən bir-birinə uyğun idi. Şimal tərəfdə yerləşən, ölçüsü 1,1x0,9 m olan ocaq təmizlənərkən içərisindən üzərində yaşıl mis oksidi olan metal şlakı aşkar olundu. Bu isə həmin otağın metal emalı ilə bağlı olduğunu təsdiq edir. Bu otağın içərisindən Eneolit dövrünə aid xeyli keramika məmulatı və heyvan sümükləri aşkar olunmuşdur.

İkinci tikinti qatına dairəvi formalı bir binanın qalıqları aiddir. Bu bina dairəvi formalıdır. Bu binaya aid divarın xarici sərhədlərini dəqiqləşdirmək mümkün olmadı. Bəzi hissələrdə eni 45-50 sm arasında idi. Onun diametri 5, 2 m idi. Binanın içərisi qara rəngli küllə dolmuşdu. Təmizlənərkən içərisindən Eneolit dövrünə aid keramika və az miqdarda heyvan sümüyü aşkar olunmuşdur. Binanın divarları içəriyə doğru pilləli şəkildə daralırdı. Qazıntı mövsümü başa çatdığı üçün bu binanı tam araşdırmaq

mümkün olmadı. Araşdırmalar göstərir ki, bina tez-tez təmir olunmuş və divarlar yerini dəyişmişdir.

Üçüncü tikinti qatına dairəvi formalı yarımqazma tipli bir binanın qalığı aiddir. Onun diametri 1, 9 m-dir. Bu bina 2014-cü ildə yaşayış yerində kəşfiyyat şurfu qoyularkən aşkar olunmuşdur. Abidədə geniş qazıntı aparıldıqdan sonra onun yaşayış yerinin stratiqrafiyasındakı yeri müəyyənləşdirildi. Bu binanın içərisindən Eneolit dövrünə aid keramika, onun şərq küncündə isə diametri 60 sm olan ocaq var idi.

Dördüncü tikinti qatı qazıntı sahəsinin şimal-şərq hissəsində 1, 3 m dərinlikdə qeydə alındı. Bu binanın yalnız bir hissəsi aşkar olunmuşdu. Digər hissəsi isə qazılan sahədən kənarda idi. Bu bina küncləri dəyirmi olan dördkünc binanın qalığına aid idi. Onun içərisindən Eneolit dövrünə aid keramika və heyvan sümükləri aşkar olundu.

Beşinci tikinti qatı dördüncüdən 30 sm aşağıda həmin sahədə aşkar olundu. Bu yarımqazma tipli dördkünc formalı binanın qalığı idi. Bu binanın da bir hissəsi qazıntı sahəsindən kənarda idi. Qazıntı sahəsində qalan hissəsinin uzunluğu 5, 2 m idi. Ən geniş yerinin eni isə 2, 5 m idi. Onun içərisində aparılan araşdırmalar zamanı Son Neolit və Eneolit dövrünə aid keramika nümunələri, heyvan sümükləri aşkar olundu. Ümumiyyətlə, bu sahədə aparılan araşdırmalar zamanı Son Neolit üçün xarakterik olan keramika məmulatı aşkar olunmuşdur. Belə hesab edirik ki, mədəni təbəqə müxtəlif dövrlərin məskunlaşması zamanı bir qədər qarışmışdır. Şübhəsiz ki, karbon analizlərin nəticələri daha dəqiq fikirlər deməyə imkan verəcəkdir.

Tədqiqat zamanı bu sahədən daşdan, o cümlədən çaxmaqdaşı və obsidiandan hazırlanmış əmək alətləri aşkar olunmuşdur. Ümumiyyətlə, əkinçilik alətləri olduqca azdır. Obsidian parçaları da az aşkar edilmişdir. Araşdırma göstərir ki, Sirabçay vadisində yerləşən Eneolit abidələrinin bir qismində obsidian çox az işlənmişdir. Ola bilsin ki, bu insanların həyat tərzi ilə bağlı olmuşdur.

İkinci qazıntı sahəsində aparılan araşdırmalar zamanı aşkar olunan ocaq yerləri tikinti dövrlərinin tez-tez dəyişdiyini göstərsə də memarlıq qalıqları olduqca az idi. Arxitektura qalıqlarına qazıntı sahəsinin şimal yarım hissəsində rast gəlinmişdir. Onlar iki otağın qalıqlarından ibarətdir. Birinci otağın uzunluğu 3, 8 m, eni 2, 9 m idi. Otaq çiy kərpicdən inşa olunmuşdu. Lakin kərpiclərin ölçüsünü müəyyən etmək mümkün olmamışdır. Onun içərisindən yalnız keramika nümunələri aşkar olunmuşdur.

İkinci otağın qalığı birincinin yaxınlığında idi. Onun yalnız iki divarının qalığı qaldığından ölçülərini müəyyənləşdirmək mümkün olmadı. Bu divarların hər ikisi birinci sahədə aşkar olunan birinci tikinti qatının arxitektura qalıqları ilə həmdövrdür.

İkinci qazıntı sahəsində birinci tikinti qatına aid yerə basdırılmış böyük təsərrüfat küpü aşkar olundu. O saman qarışıq gildən hazırlanaraq sarı rəngdə bişirilmişdi. Ondan bir qədər aralıda, qazıntı sahəsinin şərq hissəsində bir yerə toplanmış çoxsaylı gil qablara rast gəlindi. Lakin onlar yer səthinə yaxın olduğundan ərazi traktorla şumlanarkən tamamilə dağılmışdı.

Bu tikint qatından aşağıda ətrafı ensiz divarla əhatə olunmuş iş yeri aşkar olunmuşdur. Onun içərisindəki ocağın (diametri 1,2 m) külü yayılaraq bütün sahəni tutmuşdu. Dairəvi planlı iş yerinin diametri 2, 5 m idi. Ensiz divarlar bəzi qismlərdə uçaraq içəri tökülmüşdü.

Bu iş yerinin yaxınlığında qazıntı sahəsinin şimal hissəsində oval planlı böyük bir divarın qalıqları aşkar olundu. Divarın kərpicləri bəzi qismlərdə eroziyaya uğramışdı. Divarın saxlanmış hissəsinin eni 40-45 sm arasında idi. Bu divarın iç tərəfində bəzi yerlərdə kül qalıqları izlənsə də, qazıntı mövsümü başa çatdığından onu tamamilə araşdırmaq mümkün olmamışdır.

Qazıntı mövsümü sona çatdığı üçün bu sahədə mədəni təbəqənin qalınlığını yoxlamaq üçün sahənin cənub küncündə 3x2 m ölçüdə şurf qoyuldu. Şurfda aparılan araşdırma zamanı 50-60 sm-dən sonra mədəni təbəqənin bitdiyi müəyyənləşdirildi. Sahənin cənubunda diametri 50 sm olan ocaq, onun ətrafında küpə və kasa tipli qabların parçaları aşkar edildi.

Üçüncü qazıntı sahəsi təmizlənib nizama salınsa da qazıntı mövsümünün başa çatması tədqiqatları geniş şəkildə davam etdirməyə imkan vermədi. Araşdırmalar zamanı saman qarışığı olan gil qabların parçaları və heyvan sümüklərinin qalıqları aşkar olundu.

Yeni yol yaşayış yerindən aşkar olunan arxeoloji tapıntıların böyük bir qismi keramika məmulatından ibarətdir. Vaxtilə Yeni yol yaşayış yerində apardığımız araşdırmalar zamanı Son Neolit dövrü üçün xarakterik olan keramika nümunələri aşkar olunmuşdu. Arxeoloji qazıntılar zamanı yeni aşkar olunan keramika məmulatını başlıca olaraq iki qrupa bölmək olar. Birinci qrupdakılar qum qarışıq gildən hazırlanaraq qeyri-bərabər bişirilmişdir. Bu qrupdakı qablardan bəzisinin tərkibində iri daş parçalarına, yaxud çınqıl dənələrinə də rast gəlinir. Onlar hər iki üzdən yaxşı hamarlanmışdır. Qırmızı rəngdə bişirilməsinə baxmayaraq qabların bəzisi hisin təsirindən qaralmışdır. Kasa tipli bəzi qabların ağız kənarında kiçik, yuvarlaq deşiklər açılmışdır. Qeyd edək ki, ağzının kənarında yuvarlaq deşik açılan qablar böyük bir dövr ərzində – Son Neolitdən Son Eneolitə qədər istifadə olunmuşdur. Odur ki, onların tarixinin dəqiqləşdirilməsi üçün

karbon analizə ehtiyac vardır. Lakin bəzi deşiklər açılma texnikasına görə fərqlənir. Belə ki, qabların əksəriyyətində deşiklər qab bişirilməmişdən əvvəl açılmışdır. Belə keramika Cənubi Qafqazda daha çox Eneolit dövrü üçün xarakterikdir. Lakin bu tip gil məmulatına Şərqi Avropanın Neolit abidələrində də rast gəlmək mümkündür. Qeyd edək ki, bütün hallarda bu tip keramika e.ə. V minilliyin əvvəllərindən qədimə getmir.

Qabların bir qismində deşiklər bişirilmədən sonra açılmışdır. Bu tip deşikli qablar başlıca olaraq Neolit abidələri üçün xarakterikdir. Bu tip keramikaya Azərbaycanda I Kültəpə, Şomutəplə, Hacı Firuz yaşayış yerlərində də rast gəlinmişdir.

Kasa tipli qabların bir qrupunda horizontal, qulaqcıqşəkilli qulplar vardır. Bu tipli qulplar indiyədək Cənubi Qafqazın və Azərbaycanın Eneolit abidələrindən bizə məlum deyil. Lakin Şərqi Avropanın bəzi Son Neolit abidələrində bu tip qulplara rast gəlinir. Bu abidələrdə bizimkilərdən fərqli olaraq qulplar gövdənin mərkəzi hissəsindədir.

Ehtimal ki, bu qrupdakı qablar mətbəx avadanlığı kimi, yaxud təsərrüfat mallarının saxlanması üçün istifadə olunmuşdur.

İkinci qrupdakı qablar saman qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir. Qablar hər iki üzdən yaxşı hamarlanmışdır. Onların bəzisi isə parıldayanadək cilalanmışdır. Bəzilərinin üzərində qırmızı boya izləri vardır. Bu qrupa daxil olan qabların üçü boyalıdır. Onların formasını müəyyən etmək mümkün deyil. Qabların biri qalındivarlıdır. Qab saman qarışığı olan gildən hazırlanmış, yaxşı bişirilmişdir. Hər iki üzdən qırmızı rəngdədir. Üzəri qara rənglə, içərisində qara ləkə olan dairə ilə naxışlanmışdır. Bu tip ornamentlərə Naxçıvanda Ovçulartəpəsi yaşayış yerində və Şərqi Anadolu abidələrində rast gəlinmişdir.

Digər iki parça bir-birinə bənzərdir. Qablar qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir. Xarici səthi sarı rəng üzərindən qırmızı rəngli xətlə naxışlanmışdır. Bu tip ornamentə Hacı-Firuz yaşayış yerində rast gəlinmişdir.

Yaşayış yerindən əmək alətləri az aşkar olunmuşdur. Bazaltdan hazırlanmış dən daşları iki nümunə ilə təmsil olunmuşdur. Bir ədəd asma eyni cinsli daşdan hazırlanmışdır.

Sümük alətlər iki nümunə ilə təmsil olunmuşdur. Bu alətlərdən biz kimi istifadə olunmuşdur.

Obsidian parçalarına rast gəlinsə də ondan hazırlanmış əmək alətləri aşkar olunmamışdır. Çaxmaqdaşından hazırlanmış bir neçə oraq dişi əldə edilmişdir. Ehtimal ki, yaşayış yerində əkinçilik alətlərinin azlığı qədim insanların həyat tərzi ilə də

bağlı olmuş, ətraf ərazilər maldarlıq üçün əlverişli olduğundan maldarlığa üstünlük verilmişdir.

**At Ağıl yaşayış yeri** Taxçalıdan cənubda yerləşir. Yaşayış yeri hər tərəfdən qayalıqlarla əhatə olunmuş dərədə yerlışir. Burada qayaaltı sığınacaqlara da rastlanır. Araşdırma zamanı Eneolit dövrünə aid keramika parçaları, obsidian qəlpələri aşkar olunmuşdur.

**Qurddağ yaşayış yeri** Sirab kəndindən şərqdə Qahabçayın sağ sahilində yerləşir. Yaşayış yeri hündür qayalığı və onun ətəklərini əhatə edir. Mədəni təbəqə olduqca az yığılmışdır. Bəzi yerlərdə mədəni təbəqənin qalınlığı 0, 5 m-ə çatır. Yerüstü materiallar başlıca olaraq Orta Tunc dövrünə aiddir. Lakin onlar içərisində bir neçə Enetolit keramıkasına da rastlanmışdır. Onlar başlıca olaraq küpə tipli qabların parçalarından ibarətdir. Qabların biri qum qarışıq gildən hazırlanmış, qırmızı rəngdə bişirilmiş, hər iki üzündə sarı anqobun izləri qalmışdır. Ağzının içəri tərəfi qabın saxsısı üzərinə qara rənglə çəkilmiş xətlərlə naxışlanmışdır (Şəkil **37**, 1). Ağzının kənarı xaricə qatlanmış ikinci və üçüncü küpə incə saman qarışıgından hazırlanmışdır. Onlar hər iki üzdən qaba şəkildə hamarlanmışdır (Şəkil **37**, 2, 3). Küpə tipli qablardan birinin üzərində his, yaxud sürmə ilə çəkilmiş naxışın izi qalmışdır (Şəkil **37**, 5). Eneolit dövrünə aid digər küpə parçası qum qarışıq gildən hazırlanaraq sarı rəngdə bişirilmişdir (Şəkil **37**, 6).

Erkən Tunc dövrü olduqca az miqdarda keramika məmulatı ilə təmsil olunmuşdur. Bunlar Sürümçək yaşayış yerindən aşkar olunan bir boz rəngli qabın parçası və iki forma verməyn nümunə ilə təmsil olunmuşdur. Onların biri olduqca qaba hazırlanmış qara rəngdə bişirilmişdir. İçəri tərəfində enli daraqvarı alətin izi saxlanmışdır (Şəkil **13**, 3). İkinci küpə parçası qalındivarlıdır. Xaricdən qara, içəridən çəhrayı rəngdədir. Saman qarışıq gildən hazırlanmışdır (Şəkil **13**, 6).

Sirab yaxınlığında aparılan araşdırmalar zamanı daha çox Orta Tunc dövrünə aid boyalı keramika məmulatı aşkar olunmuşdur. Bu abidələr arasında Qurddağ yaşayış yeri xüsusilə diqqətəlayiqdir. Onun mərkəzi hissəsi sıldırım qayalar arasında yerləşən kiçik sahədən ibarətdir. Tədqiqat zamanı abidənin bu hissəsindən keramıka məmulatının aşkar olunması, onun yaşayış sahəsi olduğunu təsdiq edir. Ehtimal ki, bu hissə abidənin mərkəzi hissəsi olmuş və bir növ narınqala rolunu oynamışdır. Bu tipli yaşayış yerinə Kəngərli rayonunun Qarabağlar kəndi yaxınlığında da rastlanmışdır (**Baxşəliyev V.B. 2008**, **c.192, 227**). Dağın ətəyində bir neçə yerdə daşdan inşa edilmiş divar qalıqları bu abidənin Orta Tunc dövründə müdafiə istehkamı kimi istifadə edildiyini göstərir. Yaşayış yerindən aşkar olunan keramika məmulatı küpə, kasa, çölmək tipli qabların

parçalarından ibarətdir. Keramika nümunələri Orta Tunc dövrünün erkən və inkişaf etmiş mərhələsinə aiddir. Erkən mərhələyə aid olan çölmək tipli qabların biri xüsusilə diqqətçəkicidir. O, incə qum qarışığı olan gildən hazırlanaraq sarı rəngdə bişirilmişdir. Xarici səthi yaxşı hamarlanmış, birbaşa saxsının üzərinə qara rənglə çəkilmiş bucaqşəkilli xətlərlə naxışlanmışdır (Şəkil **37**, 4). Küpə tipli qablar narın qum qarışığı olan gildən hazırlanaraq qırmızı rəngdə yaxşı bişirilmişdir. Onlar ağzının və boğazının formasına görə bir-birindən fərqlənirlər. Monoxrom boyalı küpələrin biri qısa silindrik boğazlı, xaricə qatlanmış ağız kənarlıdır. Xarici səthi qırmızı boya ilə örtülərək yaxşı cilalanmış, qara rənglə çəkilmiş düz və dalğalı xətlərlə naxışlanmışdır. Ağzının kənarı içəridən qara rəngli xətlərlə naxışlanmışdır (Şəkil **38**, 1). İkinci küpənin ağzı yana doğru xeyli əyilmiş, xarici səthi və içərisi qırmızı boya ilə örtülmüş, ağzının içərisinə qara rənglə çəpinə xətlər çəkilmişdir (Şəkil **38**, 2). Küpə tipli qabların ikisinin üzəri qırmızı boya ilə örtülmüş, lakin naxışsızdır (Şəkil **39**, 1, 2). Xaricə qatlanmış ağız kənarlı, silindrik boğazlı küpələrin biri polixrom boyalıdır. Onun gövdəsinin yuxarı qismi sarı rəng üzərindən qara və qırmızı rənglərlə naxışlanmışdır (Şəkil **38**, 3). Polixrom boyalı küpə tipli qabın parçası qara və qırmızı rənglərlə naxışlanmışdır (Şəkil **38**, 5). Çölmək tipli qabın ağzının kənarı yuvarlaq olub xaricə qatlanmışdır. Onun boğazının altı sarı rəng üzərindən qara rəngli xətlə naxışlanmışdır (Şəkil **38**, 4). Kasa tipli qablar formaca bir-birindən fərqlənirlər. Onların biri ağız hissədə bir qədər içəri yığılmışdır. Xarici səthi qırmızı boya ilə örtülərək cilalanmış və qara rəngli xətlərlə naxışlanmışdır (Şəkil **38**, 6). İkinci kasanın ağzının kənarı xarıcə qatlanmış, gövdəsi bikonik formalıdır. Onun xarici səthi və ağzının içərisi qırmızı boya ilə örtülmüş, ağzının kənarı içəridən qara rəngli xətlə naxışlanmışdır (Şəkil **39**, 3). Üçüncü kasanın gövdəsi bikonik formalı, ağzının kənarı dəyirmidir. Hər iki üzdən qırmızı boya ilə örtülərək cilalanmışdır. Xarici səthi qara rənglə, bir-birinin içərisində yerləşdirilmiş bucaqlarla naxışlanmışdır (Şəkil **39**, 4).

Abidədən həmçinin xeyli miqdarda forma verməyən gil qab parçaları aşkar olunmuşdur. Onlar narın qum qarışığı olan gildən hazırlanaraq qırmızı rəngdə yaxşı bişirilmişdir. Qabların bəzisinin xarici səthi qırmızı boya ilə örtülərək cilalanmış və qara rənglə naxışlanmışdır. Bəzi qablar qırmızı rəng üzərindən cila olmadan, bəziləri isə birbaşa qabın saxsısı üzərinə çəkilmiş xətlərlə naxışlanmışdır (Şəkil **39**, 5-10; Şəkil **44**, 5-7).

Orta Tunc dövrünə aid keramika məmulatı Sürümçək yaşayış yerindən də aşkar olunmuşdur. Qeyd etmək istəyirik ki, bu yaşayış yerində aparılan araşdırmalar

zamanı rastlanan, iri daşlardan inşa olunmuş divar qalıqları ehtimal ki, Orta Tunc dövrünə aiddir. Abidədən aşkar olunan keramika məmulatı başlıca olaraq küpə, çölmək və kasalarla təmsil olunmuşdur. Qabların hamısı narın qum qarışığı olan gildən hazırlanaraq qırmızı rəngdə bişirilmişdir. Küpə tipli qablar konusvari boğazlı, xaricə qatlanmış ağız kənarlıdırlar. Onların üzəri qırmızı boya ilə örtülmüş, cilalanmadan qara rənglə naxışlanmışdır. Naxışlar qabın ağzının içəri tərəfinə də çəkilmişdir (Şəkil **40**, 6). Kasalar müxtəlif tiplidir. Onlardan biri xaricə qatlanmış ağız kənarlı, qabarıq gövdəlidir. Gövdəsi qırmızı boya ilə örtülmüş, cilalanmadan ağzının kənarından gövdəsinə doğru çəkilən enli xətlərlə naxışlanmışdır (Şəkil **40**, 1). İkinci kasa şar gövdəlidir. Onun ağzının kənarı bir qədər içəri yığılmışdır. Xarici səthi qırmızı boya ilə örtülərək cilalanmış, qara rəngli incə xətlərlə naxışlanmışdır (Şəkil **40**, 2). Üçüncü kasa ağız hissədə bir qədər içəri yığılmışdır. Onun xarici səthi və ağzının içərisi açıq qırmızı rənglə örtülmüşdür (Şəkil **40**, 3). Çölməklər xaricə qatlanmış ağız kənarlı və qabarıq gövdəlidir. Onların gövdəsi qımızı boya ilə örtülərək cila olmadan qara rəngli xətlərlə naxışlanmışdır (Şəkil **40**, 4, 5).

Keramika məmulatının bir qismi forma verməyən parçalardan ibarətdir. Onların hamısı narın qum qarışığı olan gildən hazırlanaraq qırmızı rəngdə bişirilmişdir. Qabların qırmızı boya ilə örtülmüş cilasız səthi qara rəngli xətlərlə naxışlanmışdır (Şəkil **41**, 1-9, 11). Keramika məmulatının bir qismi narın qum qarışığı olan gildən hazırlanaraq qara rəngdə bişirilmişdir. Onların xarici səthi ziqzaqşəkilli cızma ornamentlə naxışlanmışdır (Şəkil **41**, 10-14).

Qaratəpə yaşayış yerindən aşkar olunan keramika məmulatının əksəriyyəti boyalıdır. Keramika məmulatı narın qum qarışığı olan gildən hazirlanaraq qırmızı rəngdə yaxşı bişirilmişdir. Qablar formaca kasa və küpələrdən ibarətdir. Kasa tipli qabların bir qismi xaricə qatlanmış ağız kənarlı, qabarıq gövdəlidir. Onlarin xarici səthi qırmızı boya ilə örtülərək qara rənglə naxışlanmışdır. Kasaların birində naxışlar qabın ağzının kənarına çəkilmiş birləşik qövslərdən ibarətdir. Bu kasanın ağzının kənarı içəri tərəfdən qırmızı boya üzərinə çəkilmiş qara rəngli düz xətlə naxışlanmışdır (Şəkil **42**, 1). İkinci kasanın gövdəsinin naxışlanmasında bucaqşəkilli ornamentlərdən istifadə edilmişdir (Şəkil 4**2**, 2). Kasaların biri bikonik gövdəli olub, ağız hissədə bir qədər içəri yığılmışdır. Xarici səthi qara rəngli incə xətlərlə naxışlanmışdır (Şəkil **42**, 3). Dördüncü kasanın ağzının kənarı xaricə qatlanmış, gövdəsi qabarıqdır. Naxışlar qabin xarici səthinə qara rənglə çəkilmişdir (Şəkil **42**, 4). Küpə tipli qabların yalnız ağız hissəsi salamat qalmışdır. Onlar qalındivarlıdır. Qabların qırmızı boya ilə

örtülmüş cilalanmamış xarici səthi qara rəngli xətlərlə naxışlanmışdır (Şəkil **42**, 5, 7). Qaratəpədən tapılmış boyalı keramikanın bir qismi forma verməyən parçalardan ibarətdir. Naxışlar qabların qırmızı rənglə boyanmış xarici səthinə çəkilmiş müxtəlif motivli ornamentlərdən ibarətdir. Qabların bəzisinin səthi cilalı, bəzisi isə cilasızdır (Şəkil **42**, 6-9; Şəkil **43**, 1-8). Küpə tipli qaba aid parçalardan biri polixrom boyalıdır (Şəkil **43**, 3). Qabın gövdəsinin mərkəzi qismi sarı rənglə boyanaraq qara rənglə bitişik ştrixlənmiş romblarla naxışlanmışdır. Qabın digər qisminə naxışlar qırmızı boya üzərindən çəkilmişdir.

**Göy xəndək yaşayış yeri** Qahabçayın sağ sahilində yerləşir. Yaşayış yerində daşdan inşa olunmuş bina qalıqları vardır. Binaların bəzisi tək otaqlı, bəzisi isə iki otaqlıdır. Lakin binaların hansi dövrə aid olduğunu müəyyən etmək üçün arxeoloji qazıntıya ehtiyac vardır. Toplanan yerüstü materiallar içərisində formaca Eneolit dövrünün qablarına bənzəyən bir neçə küpə parçası aşkar olunmuşdur. Onların biri qum qarışığı olan gildən hazirlanaraq qırmızı rəngdə bişirilmişdir. Onun ağzının kənarında sürmə boya, gövdəsində isə qara rəngli boyanın izləri qalmişdır (Şəkil **45**, 2). Bu qabın içəri tərəfində daraqvari alətin izləri qalmışdır. Qırmızı rəngdə bişirilən küpə tipli qabın oturacaq hissəsi də formaca Eneolit qablarını xatırladır (Şəkil **45**, 3). İkinci küpə saman qarışığı olan gildən hazırlanaraq qırmızı rəngdə bişirilmişdir. Onun ağzının kənarı yana doğru qatlanmışdır (Şəkil **46**, 3). Küpə tipli qabların biri qum qarışıq gildən hazırlanaraq qəhvəyi rəngdə bişirilmiş, ağzının kənarı enli qısa xətlərlə sürmə ilə naxışlanmışdır. Bu tip naxış motivi əsasən Eneolit dövrü üçün xarakterikdir (Şəkil **46**, 8). Kasa tipli qab nazik divarlıdır. Qırmızı rəngdə bişirilmişdir. Saman qarışıq gildən hazirlanan kasanın içəri tərəfində incə daraq izləri saxlanmışdır (Şəkil **46**, 7). Forma verməyən digər bir qab parçasının içərisində daraqvari alətin izləri qalmışdir.

Yaşayış yerinin ətrafında xeyli kromlex tipli qəbir abidələri vardır. Bu tip qəbirlər Qaracalar adlanan ərazidən başlayaraq Qahabçayın sağ sahili boyunca Qurddağ yaşayış yerinədək, Qurddağdan başlayaraq Vəkil bəndinədək çayın hər iki sahilini əhatə edir. Onların diametri 5-6 m arasındadır. Bəzi kromlexlər ətraf ərazinin daşı toplanarkən dağıdılmışdır. Dağıdılmış qəbirlərdən qara və qirmızı rəngli keramika parçaları aşkar olunmuşdur. Qırmızı rənglilər başlıca olaraq forma verməyən parçalarla təmsil olunmuşdur. Onların üzəri qırmızı boya ilə örtülərək qara rənglə naxışlanmışdır (Şəkil **45**, 5, 6; Şəkil **46**, 6). Küpə parçalarından biri qara rənglə çəkilmiş torlu ornamentlə naxışlanmışdır (Şəkil **46**, 4). Küpə tipli qabların biri xaricdən qara, içəridən isə çəhrayı rəngdədir. Onun xarici səthi cilalanmışdır (Şəkil **45**, 1). Küpələrdən birinin ağzının

kənarı xaricə qatlanaraq yastılanmış və qapaq qoymaq üçün çıxıntı yaradılmışdır (Şəkil **46**, 1). Digər küpə parçasının üzəri qara rəngli olub cilalanmış, basma ornamentlə naxışlanmışdır (Şəkil **45**, 7). Üçüncü küpə parçası boz rənglidir. Onun üzəri cızma xətlərlə mürəkkəb həndəsi ornamentlə naxışlanmışdır (Şəkil **45**, 4).

Taxçalı yaşayış yerindən Orta Tunc dövrünə aid bir kasa tipli qabın qırığı aşkar olunmuşdur. Kasa qum qarışıq gildən hazırlanaraq qırmızı rəngdə bişirilmişdir. Onun səthi qırmızı boya üzərindən qara rəngli xətlərlə naxışlanmışdır (Şəkil **46**, 2). Qeyd edək ki, bunlar , Taxçalıdan aşkar olunan, Orta Tunca aid yeganə keramika nümunələridir. Digər keramika nümunələri başlıca olaraq Antik dövr və Orta əsrlərlə tarixlənir.

Dəmir dövrünə aid keramika nümunələri Qurddağ, Sürümçək, Taxçalı və digər abidələrdən əldə edilmişdir. Qurddağdan aşkar olunan keramika küpə və kasa parçaları ilə təmsil olunmuşdur. Küpə tipli qablar qum qarışığı olan gildən hazırlanaraq boz rəngdə bişirilmişdir. Onların gövdəsi qabarıq, ağzının kənarı xaricə qatlanmışdır (Şəkil **44**, 2-3). Küpə tipli qabların bir qismi qırmızı rəngdə bişirilmişdir (Şəkil **44**, 1). Onların bəzisinin üzərində qırmızı rənglə çəkilmiş boya izləri qalmışdır. Kasa tipli qab bir nümunə ilə təmsil olunmuşdur (Şəkil **44**, 4). Kasa narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir. Bu tip kasalar Dəmir dövründə geniş yayılmışdır.

Sürümçək yaşayış yerindən aşkar olunan keramika nümunələri forma verməyən parçalardan ibarətdir. Onlar qum qarışığı olan gildən hazirlanaraq qırmızı rəngdə yaxşı bişirilmiş, xarici səthi qırmızı boya üzərindən qara rəngli xətlərlə naxışlanmışdır (Şəkil **47**, 1-4).

Dəmir dövrünə aid forma verməyən keramika parçalarına Nuvars, Taxçalı, Güney Ağıl və digər yaşayış yerlərində rastlanmışdır. Onlar başlıca olaraq qırmızı, boz və sarı rəngdə bişirilmişdir. Bəzi parçaların üzərində şaquli istiqamətdə çəkilmiş cila izləri saxlanmışdır. Nuvars yaşayış yerindən aşkar olunan kirəmit parçaları burada Antik dövrün sonlarınadək yaşayış olduğunu göstərir. Ehtimal ki, burada rastlanan tikinti qaliqlarının bir qismi də Son Antik dövrə aiddir.

Sirab kəndinin ərazisi **Orta əsr** abidələri ilə də zəngindir. Bu abidələrdən biri Donuz qalasıdır. **Donuz qalası** Babək rayonunun Sirab kəndindən şimalda, hündür qayalıqların üzərində yerləşir. Qalanın yerləşdiyi ərazi hər tərəfdən sıldırım qayalarla əhatə olunmuşdur. Qalaya şərqdə olan ensiz keçiddən qalxmaq mümkündür. Abidənin yerləşdiyi ərazi uzunsov oval formalı daş divarla iki hissəyə ayrılmışdır. Divarın uzunluğu 26,6 m, eni 2,3 m-dir. O, iri qaya parçalarından hörülmüş və bəzi yerlərdə 1 m hündürlükdə salamat qalmışdır. Qala divarı ziqzaq formalı çıxıntılarla təmin edilmişdir.

Mərkəzi hissədə eni 2,9 m olan qapı vardır. Şübhəsiz ki, bu divar qalaya olan hücumların qarşısını almaq üçün inşa edilmişdir. Tədqiqat zamanı qalanın ərazisindən Orta əsrlərin erkən və inkişaf etmiş dövrlərinə aid keramika nümunələrinə rastanmışdır. Arxeoloji materiallara əsaslanaraq qalanı III-XVII əsrlərə aid etmək olar.

Orta əsrlərin tikintiləri və keramikası ilə zəngin abidələrdən biri Nuvars yaşayış yeridir. Abidənin ərazisində xeyli miqdarda şirli və şirsiz keramika məmulatına rastlanır (Şəkil **48**, 3). Şirli keramika birrəngli şirlə örtülmüş, bəzən qravür, bəzən isə anqobüstü boya ilə naxışlanmışdır. Abidənin ərazisində Orta əsrlərdə istifadə olunan təndir yerlərinə də rastlanmışdır. Abidənin yerləşdiyi terrasın aşağısında iri həcmli daşlardan hörülmüş böyük ictimai binanın qalıqları indi də qalmaqdadır. Lakin arxeoloji qazıntılar aparılmadığından binanin funksiyası və tarixi ilə bağlı dəqiq fikir demək mümkün deyil.

Taxçalı yaşayış yeri də Orta əsr keramikası ilə zəngindir. Qabların bəzisi birrəngli şirlə örtülmüş, bəzisi isə qravüra üsulu ilə naxişlanmışdır (Şəkil **48**, 1-2). Abidənin ərazisində yerləşən qayalıqda bir-biri üzərində yerləşən təbii oyuqlar vardır. Şübhəsiz ki, abidə adını buradan götürmüşdür. Bu qayaaltı sığınacaqlara salınan cığırlar onların nə vaxtsa istifadə olunduğunu təsdiq edir. Yuxarıda qeyd etdiyimiz kimi, bu yaşayış yerinin məskunlaşması ilə bağlı ən qədim tapıntı hələlik Eneolit dövrünə aiddir.

Güney Ağıl yaşayış yeri Orta əsrlərə aid tikinti qalıqları və keramika məmulatı ilə zəngindir. Keramika məmulatının bir qismi şirli qabların parçalarından ibarətdir. Onlar qravür və anqobüstü boyama üsulu ilə naxışlanmışdır (Şəkil **48**, 4). Araşdırmalar bu abidənin uzun müddət yaşayış məntəqəsi kimi istifadə olundugunu göstərir.

**Şırran Ağıl yaşayış yeri** Sirab çayının sağ sahilində yerləşir. Maldar tayfalar tərəfindən istifadə edildiyi üçün xalq arasinda "mal yatağı" da adlanır. Abidənin mərkəzi hissəsi sıldırım qayalıqla əhatə olunmuşdur. Yaşayış yerinin şərq tərəfində iri daşlardan inşa olunmuş hörgü qalıqları vardır. Yerüstü materiallar abidənin uzun müddət yaşayış məntəqəsi kimi istifadə olunduğunu göstərir. Toplanmış ən qədim keramika nümunələri Orta Tunc dövrünə aiddir. Onlar qırmızı boya ilə örtülmüş, naxışsız qabların parçalarından ibarətdir. Tapıntılar arasında Dəmir dövrünə və Orta əsrlərə aid keramika nümunələri də var. Lakin onların hamısı forma verməyən parçalardan ibarətdir.

**Babalı yaşayış yeri** Sirab çayının sol sahilini və çaya doğru uzanan təpənin ətəyini əhatə edir. Yaşayış yerində mədəni təbəqə az yığılsa da bəzi qismlərdə daşdan inşa olunmuş divar qalıqlarına rastlanır. Yerüstü keramika məmulatı başlıca olaraq Orta əsrlərə aid forma verməyən parçalardan ibarətdir.

**Vəkil bəndi** Qahabçay üzərində salınan Orta əsr memarlıq abidəsidir. Bənd əhəng məhlulu ilə qaya parçalarından və çay daşlarından tağvari formada inşa edilmişdir. Bənd inşa edildikdən sonra iri yonulmuş daş bloklarla üzlənmişdir.

Sirab kəndinin ərazisi təbiət abidələri və ziyarətgahlarla da zəngindir. Yaşayış yerlərinin ətrafındakı qayalar daşlaşmış insan və heyvan fiqurlarını xatırladır. Bu fiqurlarin biri **Gəlindaş** adlanır. O, ayaq üstə durmuş, əlində nə isə tutan insan fiquruna bənzər qırmızı qaya parçasından ibarətdir. Rəvayətə görə, azğın düşmənlərin basqınından qorunmaq üçün gəlin Allaha yalvarıb əlindəki təknəsi ilə bərabər daşa dönmüşdür.

Qayalardan tökülən şəlalələr, şır-şır axan çaylar, şəfalı mineral bulaqlar, gah çağlayan, gah quruyan çeşmələr, insanları düşməndən qoruyan dağlar və digər təbiət möcüzələri bu yerlərin müqəddəsləşdirilməsinin səbəblərindəndir. Burada dağların arasında iki mötəbər ziyarətgah var. Onların biri İydəli Dərbənd adlı ərazidə yerləşən **Iydəli pir**dir. İnsanlar qayalıqda bitən iydə ağacını müqəddəs hesab edir, niyət edərək ağaca müxtəlif parçalar bağlayırlar. Məlumata görə, pirin yaxınlıgındakı dərədən yeddi ildən bir çağlayıb çıxan su bir aydan sonra quruyur. Ümumiyyətlə, bu ərazi müqəddəs hesab olunur. Pirin yaxınlığındakı iri qaya parçaları da müqəddəs hesab edilərək ziyarət edilir. Burada daşla niyətetmə adəti də vardır.

Sirab yaxınlığındakı digər müqəddəs pir **Dəlikdaş piri** adlanır. Pir alt hissəsində oyuğu olan böyük qaya parçasından ibarətdir. Məlumata görə, uşağı olmayan qadınlar bu daşın altindan keçir, daşla niyət edirlər.

# KERAMİKA MƏMULATININ PARALELLƏRİ

**Eneolit keramikası.** Sirab ərazisində aparılan araşdırmalar zamanı rastlanan saman qarışıq və saman üzlü keramika Naxçıvanın arxeoloji abidələrindən yaxşı məlumdur. Belə keramika Naxçıvanda I Kültəpə (**Абибуллаев О.А. 1982, s. 66-67**), Ovçulartəpəsi (**Marro C., Bakhchaliyev V. Ashurov S. 2009, s. 48-54**), Xələc (**Алиев Н.Г. 1985, с. 54; Алиев Н.Г. 1988, с. 12; Seyidov A.**, **Baxşəliyev V. 2010, s. 63-78**), Aşağı Daşarx, Sədərək (**Алиев В.Г. 1986, с. 5-11**), Şortəpə və digər abidələrdən məlumdur. Araşdırmalar Sirab ətrafında başlıca olaraq iki tip keramikanın qırmızı-sarı rəngli və qəhvəyi rəngli keramikanın yayıldığını göstərir. Lakin qırmızı rəngli keramika üstünlük təşkil edir. I Kültəpədə aparılan araşdırmalar Eneolit dövründə başlıca olaraq qırmızı rəngli keramıkanın üstünlük təşkil etdiyini, lakin qəhvəyi, boz və qara rənglilərin də istehsal edildiyini təsdiq edir (**Абибуллаев О.А. 1982, s. 67**). Qəhvəyi və qara rəngli keramika nümunələrinə Xələc yaşayış yerində də rastlanmışdır (**Seyidov A.**, **Baxşəliyev V. 2010, s. 63-78**). Bu abidədə qəhvəyi rənglilərin boyalıları da aşkar olunmuşdur (**Seyidov A.**, **Baxşəliyev V. 2010, foto 72**). Qəhvəyi, yaxud şabalıdı rəngli keramikaya Muğan abidələrində də xeyli rastlanmışdır (**Нариманов И.Г. 1987, s. 125**). Araşdırmalar Sirabda rastlanan hər iki qrup keramikanın yerli istehsala məxsus olduğunu göstərir. Sirabdan aşkar olunan saman qarışıq, daraqvari alətlə naxışlanmış və samanüzlü keramika məmulatının paralelləri Azərbaycan və Yaxın Şərq abidələrindən mövcuddur. Zirincli, Şorsu, Yumru Sürümçəkdən aşkar olunan keramika nümunələrində daraqvarı alətin izlərinə demək olar ki, rastlanmamışdır. Çay Agzında bir nümunə ilə təmsil edilən ağzının kənarı dəyirmi konusvari gövdəli kasaların (Şəkil **8**, 4) bənzərləri Ovçular Təpəsindən (**Marro C., Bakhchaliyev V. Ashurov S. 2009, pl. XVI, 2, 3, 5**), Yanıqtəpə (**Burney C.A.** 1**962, p. 137; Burney C.A. 1964, p. 57; Кушнарева К.Х., Чубинишвили Т.Н. 1970, рис. 17, 1-2**), Göytəpə (**Brown T.B. 1951, p. 21-22, fig. 4-5; Кушнарева К.Х., Чубинишвили Т.Н. 1970, рис. 16, 10**), Böyüк Kəsiк (**Müseyibli N. 2007**, **tabl. I, 2-5**), Leylatəpə (**Нариманов И.Г., Ахундов Т.И., Алиев Н.Г. 2007, fig. IV, 21**), Doğu Anadolu abidələrindən (**Marro C. 2005, pl. II, 1-4**) məlumdur.

Çay ağzından aşkar edilmiş ağzının kənarı çərtməli (Şəkil **11**, 7) kasanın formaca bənzərlərinə rastlansa da, bu tip naxışlı kasalar hələlik Eneolit abidələrindən bizə məlum deyil.

Qaratəpə yaşayış yerindən aşkar olunan qabarıq gövdəli ağzının kənarında üç deşik açılmış kasanın ən yaxın bənzərinə Böyük Kəsıkdə rastlanmışdır (**Müseyibli Nəcəf 2007, tabl. XXIII, 1-4**). Bu tip qablara Zirincli və Şorsu yaşayış yerlərində də rastlanmışdır. Onlar qırmızı rəngli keramika ilə təmsil olunmuşdur. Araşdırmalar Cənubi Qafqazın bu tip keramikasının "Sioni" adlandırılmasının düzgün olmadığını göstərir (**Kiguradze T. 2000, p.321-325**). Gövdəsində, yaxud ağzının kənarında deşık açılan kasalar Keçilidə (**Нариманов И.Г. 1987, рис. 35, 1, 11**), Xələcdə (**Seyidov A.**, **Baxşəliyev V. 2010, şəkil 14, 4**), Cənubi Qafqaz abidələrində (**Кушнарева К.Х., Чубинишвили Т.Н. 1970, с. 42, рис. 15**), Şərqi Anadoluda Aştəpədə (**Marro C.** ***and A.*** **Özfirat 2005, pl. III, 3**) rastlanır. Yuxarıda qeyd etdiyimiz kimi, Qaratəpə nümunəsi qara rəngli və çəhrayı astarlı olması ilə fərqlənir. Kür-Araz mədəniyyəti üçün xarakterik olan bu xüsusiyyət, şübhəsiz ki, Eneolit keramikası ilə Kür-Araz keramikası arasında keçidin olduğunu təsdiq edir. Qaratəpədən aşkar olunan küpə tipli qabların bənzərləri Azərbaycan və Yaxın Şərq abidələrindən bəllidir.

Arxeoloji araşdırmalar Sirab ərazisində yayılan samanlı keramıkanın Azərbaycan, xüsusilə Naxçıvan abidələri üçün xarakterik olduğunu göstərir. Sirab abidələrindən aşkar olunan boyalı keramika da Azərbaycan abidələri üçün xaraktetikdir. Son illərədək Naxçıvan abidələrindən Son Eneolit dövrünə aid boyalı keramika məmulatı məlum deyildi. Lakin Ovçular Təpəsi (**Marro C., Bakhchaliyev V. Ashurov S. 2009, pl. XIX, 2**) və Xələcdə (**Seyidov A.**, **Baxşəliyev V. 2010, s. 73-76**) aparılan araşdırmalar zamanı boyalı keramıka məmulatı aşkar edilmişdir. Xələcdə bu tip keramika xüsusilə çoxluq təşkil edir. 1968-ci ildə İ.H.Nərimanovun I Kültəpə abidəsində apardığı kəşfiyyat xarakterli araşdırmalar zamanı Eneolit dövrünə aid qırmızı-qəhvəyi rənglə naxışlanmış boyalı keramika aşkar olunmuşdur. İ.H.Nərimanovun fikrinə görə, I Kültəpədən aşkar olunan qırmızı anqoblu keramika Şərqi Urmiya hövzəsi ilə əlaqələrin olduğunu təsdiq edir (**Нариманов И.Г. 1987, s. 124**). Bizim apardığımız araşdırmalar zamanı Şərur rayon tarix-diyarşünaslıq muzeyində Şortəpə abidəsindən tapılmış boyalı bir kasa aşkar edilmişdir. Tədqiqatlar boyalı keramikanın Naxçıvanda kifayət qədər yayıldığını təsdiq edir. Bəlli oldugu kimi, qırmızı boyalı keramıka Hacı Firuz yaşayış yeri üçün də xarakterik olmuşdur. S.Krollun fikrincə, Neolit və Eneolit dövründə Azərbaycanın özünəməxsus mədəni ənənələri olsa da, Son Eneolit dövrü Urmiya hövzəsinə Ubeyd ənənələrinin daxil olması ilə xarakterizə olunur **(Stephan Kroll, p. 71).** Qırmızı anqoblu boyalı keramika məmulatı İran Azərbaycanında Yanıqtəpə, Göytəpə, Kültəpə, Livar (**Stephan Kroll. 1984, p. 23**) və digər abıdələrdə də yayılmışdır. Aparılan araşdırmalar nəticəsində qırmızı anqoblu boyalı keramikanın Azərbaycan üçün xarakterik olduğu

müəyyən olunmuşdur. Naxçıvandan aşkar olunan keramika məmulatının formaca Şərqi Anadolu abidələri ilə yaxın olmasina baxmayaraq, Naxçıvanda, Mil düzündə və Urmiya hövzəsində yayılan keramikanın özünəməxsus xüsusiyyətləri Naxçıvanın Son Eneolit keramikasının Urmiya hövzəsi və Şimali Mesopotamiya ilə bağlı olduğunu göstərir. B.Helwingin fikrinə görə Şimali Ubeydin arealı Urmiya gölündən şimala yayılmamışdır (**Helwing B. 2009, p. 67**). Lakin məlum olduğu kimi, Xalaf-Ubeyd tipli keramikanın Cənubi Qafqazda yayılmasını tədqiqatçılar Şimali Mesopotamiya ilə bağlayırlar (**Кушнарева К.Х., Чубинишвили Т.Н. 1970, s. 41**). Bəzi tədqiqatçılar bunu etnik miqrasiyanın nəticəsi hesab edir (**Массон В.М. 1964, c. 407**). Tədqiqatçılar Xalaf tipli keramikanın şimala və şimal-şərqə doğru yayıldığını da qeyd etmişlər (**Le Blanc S.A. and Watson P.J. 1973, p. 111-132**). Son illər aparılan araşdırmalar Ubeyd keramikasının Naxçıvanda yayıldığını, lakin yerli ənənələrin aradan çıxmadığını təsdiq edir.

**Proto Kür-Araz keramikası.** Bu tip keramikaya Sirab ətrafında olduqca az rastlanmışdır. Yuxarıda qeyd olunduğu kimi onlar yalnız bir neçə parça ilə təmsil olunur. Bu tip keramikaya Naxçıvanda Ovçular Təpəsində (**Marro C., Bakhchaliyev V. Ashurov S. 2009, p. 54**), Xələcdə (**Seyidov A.**, **Baxşəliyev V. 2010, s.78**), I Maxta Kültəpəsi, Şortəpə və digər abidələrdə rastlanmışdır. Proto Kür-Araz keramikası həmçinin Muğan-Qarabağ ovalığında Qarahacı və Cüttəpə yaşayış yerlərindən aşkar olunmuşdur (**Cəfərov H.F. 2000, tabl. 8, 5,11**). Bu ərazidə Kür-Araz mədəniyyətinə aid keramıka nümunəsi yalnız bir nümunə ilə təmsil olunmuşdur. Bu Eneolit və Orta Tunc dövrü keramikasının ərazidə geniş yayılması ilə kontrast təşkil edir. Lakin qeyd etmək lazımdır ki, Qahabçayın yuxarı axarlarında, Xornu vadisində Erkən Tunc dövrünə aid nekropol qeydə alınmışdır. Buna görə də Qahabçay vadisindəki kurqanların bir qismi Kür-Araz mədəniyyətinə aid ola bilər. Lakin bu hələlik bir ehtimaldır.

Porto Kür-Araz keramikası Doğu Bəyazitdən (**Marro, C. and A. Özfirat. 2003, p. 391, pl.V**), Çetenli (**Marro C. and A. Özfirat. 2005, pl.IV, 3, 4** ) və Mərənd ətrafındakı abidələrdən də aşkar olunmuşdur. Bu problemin bəzi məsələləri arxeoloji ədəbiyyatda araşdırılmışdır (**Marro C. 2008, p. 14-15**). Aparılan araşdırmalar göstərir ki, Proto Kür-Araz keramikasının arealı Şərqi Anadoludan başlayaraq İran Azərbaycanının böyük bir qismini, xüsusilə Naxçıvan da daxil olmaqla Araz çayının orta axarlarını əhatə etmişdir. Kür-Araz mədəniyyətinin tarixi ilə bağlı arxeoloji ədəbiyyatda kifayət qədər məlumat vardır (**Lyonnet B. 2000, p. 299-320 ; Bakhchaliyev V., Lauren R. and Ashurov S. 2009, p.82-87; Aşurov S.H. 2002).** II Kültəpənin alt laylarından saman qarışıq keramikanın əldə edilməsi də Kür-Araz mədəniyyətinin Naxçıvanda

qədim tarixə malik olduğunu təsdiq edir (**Бахшалиев В.Б., Алиев В.Г. 1989, с. 56-60**). Bu mədəniyyət daha sonra Kür-Araz mədəniyyətinin əsasını təşkil etmişdir. Tədqiqatçıların fikrinə görə, Naxçıvan Kür-Araz mədəniyyətinin əsas vətənlərindən biri olmuşdur (**Сеидов А.Г. 1993; Исмаилзаде Гудрат. 2008 ; Bakhshaliyev V.B. 1997, p. 103 ; Ашуров С. 2005, с. 55; Seyidov A.**, **Baxşəliyev V. 2009, s. 47-58**).

**Orta Tunc dövrü keramikası.** Sirab ətrafındakı yaşayış yerlərindən bu dövrə aid xeyli keramika məmulatı aşkar olunmuşdur. Bu tip keramika məmulatı Naxçıvanın Orta Tunc dövrü üçün xarakterikdir (**Bakhshaliyev V.B. 1997, p. 105-110**). Aşkar olunan keramika məmulatının bir qisminin Boyalı qablar mədəniyyətinin erkən mərhələsinə aid olması olduqca diqqətçəkicidir. Bu tip qablarda boya birbaşa qabın boyanmamış, yaxud qırmızı rənglə boyanmış cilasız səthinə çəkilmişdir. XX əsrin 90-cı illərində aparılan araşdırmalar zamanı Naxçıvan ərazisində dağ qalalarının olduğu müəyyən edilmişdi (**Belli Oktay, Bahşaliyev Veli**. **2001, s. 27**). Son illər aparılan araşdırmalar zamanı Naxçıvanın dağlıq ərazısində yeni qalatipli yaşayış yerləri, o cümlədən Göynük qalası (**Baxşəliyev V.B. 2008, s. 192**), II Bəzəkli qalası (**Baxşəliyev V.B. 2008, s. 226**) və digərlərinin qeydə alınması dağ qalalarının Naxçıvan üçün xarakterik olduğunu göstərir. Sirab ərazisindəki Sürümçək, Sırran ağıl və Qurddağ qalaları şübhəsiz ki, bu dövrün müdafiə istehkamlarından olmuşdur. Müdafiə xarakteri daşıyan bu tip qalaların, demək olar ki, Naxçıvanın bütün bölgələrində aşkar edilməsi bu dövrdə ətraf ərazini nəzarətdə saxlayan kiçik qalaların da inşa edildiyini göstərir. Dağ qalaları ilə bərabər Orta Tunc dövrünə aid olan kromlex tipli qəbir abidələri də Naxçıvanın məhsuldar vadilərinin Orta Tuncun erkən mərhələsində məskunlaşdırıldığını göstərir. Aşkar olunan tapıntılar Orta Tunc dövründə Naxçıvanda əhalinin oturaq həyat sürməklə yanaşı köçmə maldarlıqla da məşğul olduğunu təsdiqləyir.

Orta Tunc dövrünə aid keramika məmulatının bənzərləri Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadolu abidələrindən yaxşı məlumdur. Qurddağdan aşkar olunan ağzının kənarı xarıcə qatlanmış küpələrin (Şəkil **38**, 1) bənzərləri Doğubəyazit (**Marro C. and A. Özfirat. 2005, s. 327, pl.IX, 6** ), Yaycı (**Belli Oktay, Bahşaliyev Veli. 2001, çızim 18, 2**), Şahtaxtı (**Belli Oktay, Bahşaliyev Veli. 2001, çızim 17, 2-3**), Çalxanqala (**Алиев В.Г. 1991, tabl. VII, 1**), II Kültəpə, Nəhəcir (**Алиев В.Г. 1991, с. 93-95**) və başqa abidələrdən əldə edilmişdir. Qaratəpə (Şəkil **42**, 1) və Qurddağdan (Şəkil **39**, 4) aşkar olunan ağzının kənarı bir-birinin içərisində yerləşdirilən qövsşəkilli xətlərlə naxışlanmış qablar Naxçıvan abidələri üçün xarakterikdir. Onlar Çalxanqala (**Алиев В.Г. 1991, с. 71-72, tabl. VII, 4, VIII, 9**), Qaraçuq, Qıvraq (**Belli Oktay, Bahşaliyev Veli. 2001, çızim 9, 3-7**) və digər abidələrdən bəllidir. Bu tip keramika məmulatı

Orta Tunc dövrünün erkən mərhələsi üçün xarakterikdir. Bu baxımdan Çalxanqala kurqanlarından tapılan kasaların kompleksindən boz rəngli keramikanın tapılması, habelə tunc əşyaların bir qisminin mis-arsen qarışığından hazırlanması onların erkən tarixindən xəbər verir (**Алиев В.Г. 1991, с. 71-72; Бахшалиев В.Б. 2005, с. 46-50**).

Sirab abidələrindən aşkar olunan Orta Tunc dövrünə aid keramika məmulatının bəzəmə motivləri Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadoludan məlumdur. Keramika məmulatı arasında polixrom boyalılar dörd nümunə ilə təmsil olunmuşdur. Onların mərkəzi hissəsi sarı boya ilə örtülərək qara və qırmızı rənglərlə naxışlanmışdır. Bu tip keramika məmulatı Naxçıvanda boyalı qablar mədəniyyətinin əsas mərhələlərindən birini təşkil edir (**Алиев В.Г. 1991, с. 109; Belli Oktay, Bahşaliyev Veli**. **2001, s. 38-44**).

Orta Tunc dövrünə aid keramika məmulatının bir qismi qara rəngdə bişirilmiş cizma və basma naxışlı qablardan ibarətdir. Onların hamısı forma verməyən parçalardan ibarətdir. Keramika nümunələrinin dördü Surumçəkdən aşkar olunmuşdur. Onlar ziqzaqşəkilli cızma ornamentlə naxışlanmışdır. Qahabçay hövzəsindən aşkar olunan parçaların biri cızma xətlərlə, digəri isə basma ornamentlə naxışlanmışdır. Bu tip keramika məmulatı Orta Tunc dövrünün erkən mərhələsi üçün xarakterik hesab edilir. Belə keramika II Kültəpə (**Алиев В.Г. 1991, с. 97; Əliyev 1977, s. 53**), Üzərliktəpə, Nəhəcir (**Seyidov A.Q., Baxşəliyev V.B. 2002, s. 68-72**) və digər abidələrdən aşkar olunmuşdur. Basma naxışlı qablar Azərbaycanın Qarabağ bölgəsinin abidələrində xüsusilə geniş yayılmışdır. Tədqiqatçıların fikrinə görə, bu keramika Erkən Tunc dövründə meydana çıxmış və Orta Tunc dövründə inkişaf etmişdir (**Алиев В.Г. 1991, с. 97**). II Kültəpədə aparılan araşdırmalar zamanı basma naxışlı keramikanın dulus sobalarından aşkar olunması onların istehsalının yerli ustalar tərəfindən də mənimsənildiyini göstərir (**Алиев В.Г. 1991, с. 31**).

**Dəmir dövrü.** Bu dövrə aid keramika məmulatının əksəriyyəti forma verməyən parçalardan ibarətdir. Qurddağ yaşayış yerindən aşkar olunan keramika məmulatının bir qismi boz rənglidir (Şəkil **44**, 1-2). Bu tip keramika məmulatı Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrü abidələrindən çox sayda əldə edilmişdir (**Baxşəliyev V.B. 2002**). Küpə tipli qabların bir qismi qırmızı rəngdə bişirilmiş, bəziləri qırmızı boya ilə naxışlanmışdır. Bu keramika məmulatı Dəmir dövrünün erkən və orta mərhələsinə aiddir. Qurddağ yaşayış yerindən aşkar olunan, ağzının kənarı köbəli kasa tipli qab Son Dəmir dövrü üçün xarakterikdir. Bu tip keramika Naxçıvanda Oğlanqala, Qızqala, Qazançıqala və digər yaşayış yerlərindən əldə edilmişdir. Bu tip kasalar İran Azərbaycanında Borci qaladan (**Stephan Kroll. 1984, abb. 5, 4**), Böyük qaladan

(**Stephan Kroll. 1984, abb. 28, 6**) və digər abidələrdən məlumdur. Cənubi Azərbaycan abidələrində bu tip keramika olduqca geniş yayılmışdır.

Son Dəmir dövrünə aid boyalı keramika parçaları Sürümçək yaşayış yerindən də aşkar olunmuşdur. Keramika nümunələrinin üzəri qırmızı boya üzərindən qara rənglə naxışlanmışdır (Şıkil **47**, 1-4). Bu tip keramika Naxçıvanın Son Dəmir dövrü abidələri üçün xarakterikdir. Oğlanqalada aparılan araşdırmalar zamanı da bu tip keramikaya rastlanmışdır.

Yaşayış yerlərinin, demək olar ki, hamısında Orta əsr keramıkasına rastlanır. Keramika məmulatı başlıca olaraq şirsiz, az miqdarda isə şirli qabların parçaları ilə təmsil olunmuşdur. Orta əsr keramikasına çox sayda rastlanması bu yaşayış yerlərinin həmin dövrdə geniş istifadə edilməsi ilə bağlıdır. Nuvars yaşayış yerinin böyük ərazini əhatə etməsi bu abidənin Orta əsrlərdə mühüm yaşayış məntəqəsi olduğunu göstərir. Bu yaşayış yerindən bir qədər yuxarıda Babalı və Naxışnərgiz, Köhnə Külüs yaşayış yerləri vardır. Qahabçay uzərində tikilən Vəkil bəndi Orta əsrlərdə bu vadidə yaşayan əhali arasında iqtisadi-mədəni əlaqələrin olduğunu təsdiq edir.

# NƏTİCƏ

Kültəpə ətrafında aparılan araşdırmalar burada qədim dövrlərdən başlayaraq insanların məskunlaşdığını göstərir. Ərazinin bol otlaqları, gursulu çayları, həmçinin bu ərazinin təbii mağaralar və qayaaltı sığınacaqlarla zəngin olması qədim insanların burada məskən salması üçün şərait yaratmışdır. Araşdırmalar zamanı yaşayış yerlərindən xeyli obsidian qəlpələrinin və nukleusların aşkar olunması, hətta Qahabçay hövzəsində misin mineralları olan malaxit və azuritə rastlanması qədim insanların xammal ehtiyatları ilə tanış olduqlarını göstərir. Şübhəsiz ki, xammal əldə etmək istəyi də insanların geniş əraziyə yayılmasında müəyyən rol oynamışdır. Bu baxımdan Sürümçək dağında qara rəngli çaxmaqdaşına rastlanması olduqca maraq doğurur.

Sirabda aşkar olunan ən qədim abidələr hələlik Eneolit dövrünə aiddir. Abidələrdən aşkar olunan keramika məmulatinin tədqiqi onların başlıca olaraq Eneolit dövrünün sonlarına aid olduğunu göstərir. Lakin olduqca qaba hazırlanan bəzi keramika parçaları Eneolit dövrünün əvvəllərinə də aid edilə bilər. Bu xüsusilə Son Eneolit dövrünün sarı rəngli keramikasından fərqlənən qırmızı rəngli saman qarışıq qaba keramikaya aid edilə bilər. Sirab kəndi yaxınlığında Şorsu, Zirinclik, Yumru Sürümçək yaşayış yerindən aşkar olunan keramika saman qarışıq qırmızı rəngli keramika məhz bu xüsusiyyətləri ilə fərqlənir. Arxeoloji ədəbiyyatda Eneolit mədəniyyətinin xronologiyası ilə bağlı müxtəlif problemlərə ədəbiyyatda toxunulmuşdur (**Lyonnet B. 2000, p. 299-320 ; Helwing B. 2000, p.145-164**). Arxeoloji araşdırmalara əsaslanaraq demək olar ki, təqribən e.ə. VI minilliyin əvvəllərindən başlayaraq bu ərazidə intensiv yaşayış olmuşdur.

Eneolit və Orta Tunc dövrü keramikasının geniş yayıldığı şəraitdə Kür-Araz keramikasına olduqca az rastlanması diqqəti çəkir. Yuxarıda da qeyd etdiyimiz kimi, Qahabçayın yuxarı hövzəsində Xornu çayı vadisində Erkən Tunc dövrü nekropolu aşkar olunmuşdur. Bu həmin dövrdə əhalinin Qahabçay hövzəsi boyunca hərəkət etdiyini təsdiq etsə də, yaşayış yerlərində bu dövrə aid keramika məmulatı, demək olar ki, yoxdur. Belə hesab edirik ki, bu problem gələcək araşdırmalar zamanı aydınlaşacaqdır.

Orta Tunc dövründə qala tipli yaşayış yerlərinin yayılması köçmə maldarlığın inkişafı, əhalinin müdafiə ehtiyacının artması ilə bağlı olmuşdur. Qala tipli yaşayış yerlərindən Orta Tunc dövrünün erkən mərhələsinə aid keramika məmulatının aşkar olunması bu proseslərin e.ə. III minilliyin ortalarından başladığını təsdiq edir.

Sirab ətrafında aşkar olunan yaşayış yerlərinin hamısı mövsümi yaşayış yerləridir. Qaratəpə istisna olmaqla abidələrdə mədəni təbəqə olduqca az yığılmışdır. Təbəqənin azlığı, kömür qalıqlarının olmaması abidələrin mütləq xronologiyasını müəyyən etməyə mane olur. Ehtimal ki, Kür-Araz mədəniyyətinin yayıldığı dövrdə Eneolit mədəniyyəti tamamilə yox olmamış və inkişafını davam etdirmişdir. Urmiya hövzəsindən başlayaraq Azərbaycanın böyük bir hissəsində, o cümlədən Naxçıvanda qırmızı anqoblu, bəzən isə boyalı keramikanın yayılması, bizcə, təsadüfi deyildir. Ola bilsin ki, bu mədəniyyət daha sonra Orta Tunc dövrü mədəniyyətinin əsasını təşkil etmişdir. Orta Tunc dövrünün boyalı keramikası ilə Son Eneolit dövrünün qırmızı anqoblu keramikasının arealının üst-üstə düşməsi bunu ehtimal etməyə imkan verir.

# ВВЕДЕНИЕ

Территория Нахчыванской Автономной Республики богата археологическими памятниками различных периодов. Археологические памятники Нахчывана имеют большое значение не только для изучения истории Азербайджана, но также и истории Южного Кавказа, Ближнего Востока и всего мира. Однако некоторые проблемы, связанные с древней историей Нахчывана, особенно некоторые вопросы эпохи неолита, энеолита и Куро-Аракссской культуры, полностью не изучены. Несмотря на то, что поселение Кюльтепе-I широко изучалось в советское время, вопрос о присутствии неолитических напластований в этом поселении полностью не решен. Некоторые кавказоведческие исследователи приняли присутствие неолитических напластований в поселении Кюльтепе-I, а другие игнорировали. С другой стороны, несмотря на существование этого памятника, памятники эпохи неолита и энеолита в восточной части Нахчывана не изучены хорошо.

В последние годы в Шарурском районе выявлены новые энеолитические памятники. Как известно, подобные памятники присутствуют также вблизи Маранда в Иранском Азербайджане. Это способствовало выявлению новых неолитических и энеолитических памятников.

При финансовой помощи Фонда Развитии Науки при Президенте Азербайджанской Республики в 2013-2014 гг. памятники в окрестностях поселения Кюльтепе-I снова привлекались к исследованию. В результате исследований в окрестностях поселения Кюльтепе-I выявлено более пятидесяти археологических памятников, охватывающих длинный период истории Нахчывана от неолита до средневековья включительно. Нововыявленные памятники способствуют изучению проблем эпохи неолита, энеолита и раннебронзового периода, а особенно вопросов заселения горных и предгорных местностей. Эти памятники позволяют изучать связи древних племен Нахчывана с племенами Южного Кавказа и Ближнего Востока и оценить позицию памятников Нахчывана на Ближнем Востоке.

Исследование памятников в окрестности поселения Кюльтепе-I показало, что этот район заселен еще с эпохи неолита и сыграл важную роль в истории Ближнего Востока. Ввиду того, что здесь был доступ к сырьевым ресурсам, в том

числе к медным и обсидиановым ресурсам Южного Кавказа, регион в течение длительного времени не терял своего значения для ближневосточных стран. При этом сырьевые ресурсы, расположенные непосредственно в самом Нахчыване, также способствовали развитию отношений с ближневосточными странами.

Всестороннее исследование памятников Нахчывана является результатом государственной заботы. Общенациональный лидер Азербайджанского народа Гейдар Алиев не раз отмечал важность исследования памятников Нахчывана, которые носят следы различных культур. Президент Азербайджанской Республики господин Ильхам Алиев подписал некоторые указы, связанные с расширением исследовательских работ в Институте Археологии и Этнографии НАНА, а также в Музее Истории Азербайджана, который является великим хранилищем многочисленных памятников материальной культуры, в том числе археологических.

Охрана и исследование памятников истории и культуры, расположенных на территории Нахчыванской Автономной Республики, всегда были в центре внимания Председателя Верховного Меджлиса Нахчыванской Автономной Республики. Обнаружение новых памятников на территории Нахчывана каждый год является следствием государственной заботы.

Мы глубоко благодарны Председателю Верховного Меджлиса Нахчыванской Автономной Республики господину Васифу Талыбову, а также исполнительного директора Фонда Развития Науки при Президента Азербайджанской Республики Ельчину Бабаеву, председателю Нахчыванского Отделения НАНА Исмаилу Гаджиеву за создание благоприятных условий для исследования памятников. Мы также признательны жителям селения Сираб, которые всегда помогали нам своими заботами.

# АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ В ПОСЕЛЕНИИ КЮЛЬТЕПЕ В 2013 ГОДУ

Как известно, раскопки поселения Кюльтепе начались в 50-х годах XX столетия (Həbibullayev, 1959, с. 14) О.А.Абибуллаевым. Поселение Кюльтепе-I до последних лет являлось единственным памятником этого периода на территории Нахчывана. В виду того, что материалы нижних горизонтов поселения Кюльтепе-I редко публиковались, вопросы, связанные с происхождением и генезисом неолита этого края, являются малоизученными.

